# GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ

*(1831-ci və 1842-ci illər)*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
Bakı – 2017

**TƏRCÜMƏ, TƏRTİB VƏ ÖN SÖZÜN MÜƏLLİFİ NAZİR ƏHMƏDLİ**

**Elmi redaktoru:** *t.ü. f.d. H.Məmmədov* ***(Qaramanlı)***
**Elmi məsləhətçi:** *t.ü. elmlər doktoru* ***T.Nəcəfli***
**Rəyçi:** *t.ü.elmlər doktoru* ***Q.Hacıyev***

***Nazir Əhmədli. Göyçə mahalının kameral təsviri. Bakı, "Elm və təhsil", 2017, 292 səh.***

***Kitaba daxil edilən Qərbi Azərbaycanın Göyçə mahalında 1831-ci və 1842-ci illərdə çar məmurları A.Rıjkov və A.Korallov tərəfindən tərtib edilmiş kameral təsvirlərdə əhalinin adbaad siyahısı, yaşı, milli tərkibi, sayı ilə yanaşı, mahalın təbii ehtiyatları, heyvanat və bitki aləmi, dağları, çayları, gölləri, yolları, əhalinin məşğuliyyəti, vergilər və s. ətraflı şəkildə təsvir olunmuşdur.***

***ISBN 978-9952-8176-1-2***

***© "Elm və təhsil", 2017***
***© Nazir Əhmədli, 2017***



*ÖN SÖZ*

## QƏRBİ AZƏRBAYCANIN GÖYÇƏ MAHALI

İrəvan xanlığının ən böyük mahallarından biri olan Qərbi Azərbaycanın Göyçə mahalının Kameral təsvirinə yazılmış izahat yazısında bu mahalın şimalda Yelizavetpol əyaləti, Qazax və Şəmşəddin distansiyaları, qərbdə Pəmbək vilayəti, Dərəçiçək mahalı və Qırxbulaq mahalının bir hissəsi, cənubda Qırxbulaq, Gərnibasar və Vedibasar mahalları, nəhayət, şərqdə Dərələyəz mahalı və Qarabağ vilayəti ilə həmsərhəd olduğu qeyd edilir.

1988-ci ildə Dağlıq Qarabağ ətrafında baş verən hadisələrlə bağlı olaraq Qərbi Azərbaycanlılar öz doğma yurdlarından deportasiya olunana qədər Azərbaycan türkləri tarixi Göyçə mahalının Basarkeçər və Krasnoselo rayonlarında əksəriyyət təşkil edirdilər. Göyçəlilərin Qərbi Azərbaycandan didərgin düşməsinin əsası isə hələ XIX əsrin əvvəllərindən, Şimali Azərbaycan xanlıqlarının bir-birinin ardınca Rusiya İmperiyası tərəfindən işğal edilməsi ilə qoyulmuşdu. Göyçə mahalının da daxil olduğu İrəvan xanlığının Rusiya İmperiyası tərəfindən işğalından sonra çar Rusiyası Qacarlar İranından və Türkiyədən köçürdüyü ermənilərı bu ərazilərdə yerləşdirməklə vəziyyəti ermənilərin xeyrinə dəyişdi, 1918-ci ilin may ayında İrəvan və ətrafındakı əraziləri ermənilərə güzəştə getdikdən sonra bu proses sürətləndi. Sovet hakimiyyəti illərində yerli azərbaycanlıları sıxışdırmaq siyasətini davam etdirərək, 1948-ci ildə onların böyük bir hissəsini Kremlin əli ilə Azərbaycana köçürməyə nail oldular və 1988-ci ildə həmin işi başa çatdır-

dılar. Bu sıraya quldur Andranikin 1918-ci ildə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının, Qarabağın ərazisində, Zəngəzurda və bütün Cənubi Qafqazda törətdiyi vəhşilikləri, müsəlman türklərin buradan pərən-pərən salınmasını da əlavə etməliyik. Beləliklə, bir zamanlar müsəlman türklərin mütləq əksəriyyət təşkil etdiyi ərazilər 1828-1988-ci illərdə, 160 il ərzində ardıcıl və məqsədyönlü şəkildə onlardan təmizləndi...

Azərbaycanın tarixi Göyçə mahalı əsrlər boyu Azərbaycanda mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. Səfəvilər dövründə Çuxursəd bəylərbəyliyinə daxil olan Göyçə mahalı Osmanlı imperatorluğu tərəfindən bir neçə dəfə qısamüddətli işğala məruz qalsa da, onlar Göyçə mahalının da daxil olduğu Çuxursəd bəylərbəyliyini iki dəfə-1583-cü və 1724-cü illərdə istila edə bilmişdilər. Birinci istiladan sonra oranı 1604-cü ildə I Şah Abbas, ikinci dəfə isə 1735-ci ildə Təhmasibqulu xan titulunu daşıyan Nadir xan işğaldan azad etmişdir. Hər iki halda Göyçə mahalı böyük dağıntılara məruz qalmış, növbəti dəfə ayağa qalxması üçün xeyli vaxt və səy sərf olunmuşdur.

1735-ci ildə Göyçənin Nadir xan Əfşar tərəfindən azad edilməsini türk alimi A. Ataş belə təsvir edir: "Nadir, 6 may 1735-ci ildə (hicri-qəməri 13 zilhiccə 1148) Gəncəni tərk etdi ve Alaköyə gəldi...

Qars qalasını ala bilməyən Nadir, buraya sığınan Sərdar Köprülüzadə Abdulla paşanı qaladan çıxarmaq məqsədilə manevrlər etdi. O, mayın 25-də (2 məhərrəm) Qars çayını və Arpaçayı **(Qərbi Arpaçay-N.Ə.)** keçərək Əli paşanın müdafiə etdiyi İrəvana doğru hərəkət edərək **Göyçə yaylasına** gəldi. Abdulla paşanın hərəkət tərzi bəlli olana qədər bir müddət vaxtını burada keçirdi. Daha sonra qərargahını İrəvan yaxınlarına köçürdü.

Nadirin geri çəkilməsinə baxmayaraq, Abdulla paşa hələ də çəkingən davranırdı. Ancaq İstanbuldan düşməni təqib etməsi, əks halda cəzalandırılacağı əmr edildiyinə görə, Abdulla paşa hərəkətə keçmək məcburiyyətində qaldı.





İrəvanı mühasirəyə almağa hazırlaşarkən, Abdulla paşanın 80 minlik ordu ilə üzərinə gəldiyindən xəbər tutan Nadir də onu qarşılamaq məqsədi ilə 70 minlik bir ordu ilə İrəvan yaxınlığındakı dar bir boğazda döyüş mövqeyi tutdu. 1735-ci ilin 18 iyununda (26 məhərrəm 1148) baş verən döyüşdə Osmanlı ordusu məğlub oldu. Sərəsgər Abdulla paşa və Diyarbəkr valisi Sarı Mustafa paşa öldürüldülər.

Osmanlı tarixlərində **"Arpaçay müharibəsi"** adı ilə məşhur olan bu döyüşdə Osmanlı ordusu böyük itkilər vermiş, bütün toplar və döyüş sursatı Nadirin əlinə keçmişdir. Nadir Arpaçay qələbəsindən sonra Abdulla paşanın cənazəsini Zahirəçi Mehmet ağa ilə Qarsa, Sarı Mustafanın cənazəsini İrəvana göndərdiyi kimi, əsir aldığı bir qisim osmanlı əsgərlərini də Gəncə və İrəvana göndərdi. O, bu hərəkəti ilə Osmanlı ordusunun düşdüyü ağır vəziyyəti xalqa və bu şəhərləri müdafiə edən osmanlı əsgərlərinə göstərmək istəyirdi.

Arpaçay müharibəsindən sonra vəziyyət Osmanlıların əleyhinə dəyişdiyinə görə, Nadir əvvəllər mühasirədə saxlayıb ala bilmədiyi Gəncə, Tiflis və İrəvan şəhərlərini ələ keçirdi" [1, 173-175].

1828-ci ildə İrəvan xanlığı və o cümlədən onun bir hissəsi olan Göyçə mahalı Rusiya imperiyası tərəfindən işğal olundu.

1747-ci ildə Nadir şah Əfşarın sui-qəsd nəticəsində öldürülməsindən sonra onun yaratmış olduğu imperiyanın dağılması, müstəqil Azərbaycan xanlıqlarının yaranması, onların arasında rəqabət və üstünlük uğrunda mübarizənin başlanması Rusiyanın gələcək işğalları üçün əlverişli imkan yaratdı. Çar Rusiyası əlverişli coğrafi mövqedə yerləşən Naxçıvan və İrəvan xanlıqlarının işğalına xüsusi önəm verirdi, hətta xanlara rüşvət vermәsini də məsləhət görürdü.

Rusların İrəvan qalasına ilk hücumu hələ 1804-cü ildə general Sisyanovun başçılığı ilə baş verdi, amma Sisyanov qalanı tuta bilmədi və bir müddətdən sonra Bakıda, Qoşa Qala qapısı önündə öldürüldü.

Rusların 1808-ci ildəki ikinci cəhdi də boşa çıxdı.

Üçüncü və həlledici hadisələr 1826-1828-ci illər ikinci Rusiya-İran müharibəsinin gedişində baş verdi. Rusiya imperatoru I Nikolay hərbi əməliyyatlarda iştirak edən Rusiya qoşunlarının komandanı Yermolova 1826-cı il oktyabrın 21-də yazırdı: **"Əgər İrəvanı ya silah gücünə, ya İrəvan Sərdarını pulla ələ almaq yolu ilə, ya da onunla gizli münasibətlər qurmaqla ələ keçirmək mümkündürsə, bu imkanı əldən verməyin"** [2, 122].

1827-ci ilin yaz aylarında rus qoşunlarının yeni komandanı general Paskeviçin İrəvanı tutmaq üçün növbəti cəhdi də boşa çıxandan sonra o yeni taktika seçdi. Hücumun istiqamətini dəyişib Təbrizi və Naxçıvan xanlığını tutdu. Burada naxçıvanlı Ehsan xanın rusların tərəfinə keçməsi ciddi rol oynadı, Abbasabad qalasının içərisində üsyan çıxarıb qalanı onlara döyüşsüz təslim etdi[3, 108].

Paskeviç xeyli ərzaq və silah-sursat ehtiyatının olduğu Sərdarabad qalasını tutdu. Sərdar Hüseynqulu xanın qardaşı Həsən xanın müdafiəsinə başçılıq etdiyi qala müdafiəçilərinin qəhrəmanlığına, fədakarlıqlarına baxmayaraq, 1827-ci ilin oktyabr ayının əvvəllərində Azərbaycan türklərinin son qalası İrəvan yerli ermənilərin də satqınlığı nəticəsində süqut etdi. İşğal edilmiş Təbrizin və başqa ərazilərin qaytarılması şərtilə İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya güzəştə getməyə məcbur olan İran Qacarlar dövləti 1828-ci il fevral ayının 10-da onunla Türkmənçay müqaviləsini bağladı. Rusiyanın təkidli tələbi ilə müqaviləyə əlavə edilən 15-ci maddə uyğun olaraq İrandan keçmiş Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə ermənilərin





köçü başlandı. Salmas, Xoy və Makudan köçürülmə işinə erməni zabiti Lazarev rəhbərlik edirdi. Köçürməni stimullaşdırmaq üçün ermənilərə 25 min rubl gümüş pulla yardım edilmiş, yeni ərazilərdə onlar 6 il bütün vergilərdən azad edilmişdilər. İrandan cəmi 6.949 erməni ailəsi köçürülərək bu iki xanlığın yerində I Nikolayın fərmanı ilə 1828-ci ilin martında yaradılmış Erməni vilayətinə yerləşdirilmişdi.

Rusiya İmperiyası bununla da kifayətlənməyib 1828-1829-cu illərdə Türkiyəyə qarşı apardığı işğalçı müharibənin nəticəsi olaraq 1830-cu ildən başlayaraq Türkiyədən də erməniləri buraya köçürməyə başladı. Qısa müddətdə oradan 3.682 erməni ailəsi köçürüldü ki, onların böyük bir qismi-1.485 ailə Göyçə mahalına yerləşdirildi. Əgər köçürmədən əvvəl Göyçədə cəmi 15 erməni ailəsi yaşayırdısa, Göyçə gölünün cənubunda yerləşdirilən bu ermənilər etnik qruplar arasındakı nisbəti ermənilərin xeyrinə dəyişmiş oldu.

Hər üç işğaldan (1583, 1724 və 1828) sonra işğalçı dövlətlər yeni ərazilərin idarəsi üçün lazım olan hüquqi bazanı hazırlamaq üçün sənədlər tərtib etmişlər. Osmanlılar bu cür sənədlərə **"təhrir dəftəri"** deyirdi və bu dəftərlər **"müfəssəl"** və **"icmal"** olmaqla iki cür tərtib edilirdi. İcmal dəftərlərində ərazidəki kəndlər və təsərrüfat subyektləri (tiyul, zeamət, timar, kəndlər) siyahıya alınaraq onların nə qədər vergi ödədiyi yazılırdısa, **"müfəssəl dəftər"**lərdə burada yaşayan vergi mükəlləfiyyətli əhali də siyahıya alınırdı.

Osmanlı sultanları iki dəfə-1590-1593-cü və 1727-1728-ci illərdə ***"təhrir dəftəri"*** tərtib etmişlər. 1590-cı və 1727-ci illərdə müfəssəl dəftərlər, 1593-cü və 1728-ci illərdə isə icmal dəftərləri tərtib edilmişdir.

Rusiya hökumətinin tərtib etdiyi oxşar sənədlər isə **"kameral təsvir"** adlanırdı. Bu cür sənədlərdən birincisi 1831-ci ildə,

sonrakılar isə 1842-ci, 1852-ci, 1859-cu, 1873-cü və 1886-cı illərdə tərtib olunmuşdur. Əgər osmanlılar ancaq yığdıqları verginin miqdarını göstərirdilərsə, Kameral təsvir sənədlərində inzibati ərazinin-mahalın əhalisinin siyahısı ilə yanaşı, həmin ərazi bir növ inventarlaşdırılmışdı. Mahalın yolları, coğrafi mövqeyi, relyefi, dağları, su ehtiyatları, boş kəndlərin siyahısı da bu sənədlərdə öz əksini tapmışdır.

Bu kitaba Göyçə mahalına aid 1831-ci və 1842-ci illərdə tərtib edilmiş iki kameral təsvir sənədi daxil edilmişdir [4; 5].

Bu sənədlərdən **"Şopenin siyahısı"** adlanan 1831-ci il tarixli ilk Kameral təsvirin meydana çıxmasının tarixi haqqında məlumat verməyə ehtiyac vardır.

Özünün yazdığına görə, Türkmənçay müqaviləsindən (1828) sonra onu yanına dəvət edən işğalçı rus qoşunlarının komandanı general **Paskeviç** İ.Şopendən xahiş edir ki, Rusiya imperiyasına yenicə birləşdirilən keçmiş Naxçıvan və İrəvan xanlıqlarının, sonradan onların yerində yaradılmış Erməni vilayətinin ərazisində tədqiqat aparsın, əhalinin etnoqrafiyasını, sosial-iqtisadi vəziyyətini müfəssəl şəkildə araşdırsın və ətraflı raport təqdim etsin. Şopen onun təklifini qəbul etmiş və Erməni vilayətini qarış-qarış gəzmiş, əhalinin kameral, yəni adbaad siyahısını tərtib etmiş və topladığı materiallar üzərində uzun müddət araşdırma aparmış, bu araşdırmaların nəticəsi olaraq **"Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə aid tarixi abidə"** adlı kitabını nəşr etdirmişdir.

Göründüyü kimi, çar Rusiyasında işğal etdiyi əraziləri uğurla idarə etmək və bir daha itirməmək üçün bu cür fundamental işlər görülürdü. Əsərin girişində müəllifin verdiyi izahatdan belə məlum olur ki, **İ.Şopen bu işi 1829-cu ilin aprel ayında başlamış, 1832-ci ilin may ayında başa çatdırmış,**





onun irihəcmli və qiymətli əsəri 1852-ci ildə Sankt-Peterburqda işıq üzü görmüşdür. Bu əsər bizə də çox qiymətli məlumatlar verir, belə ki, burada başqa ərazilərlə yanaşı, Göyçə mahalı da kəndbəkənd araşdırılmış, hər kənddə yaşayan əhali adbaad göstərilmişdir. Həmin kitabına yazdığı ön sözdə İ.Şopen uzaqgörənliklə deyir: **"Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrün vəziyyətini təsvir edən bu kitab bir sıra inventarları özündə cəmləşdirib. Bu kitabın köməyi ilə gələcəkdə daim müqayisə edib deyəcəklər-nəyimiz var imiş, indi nəyimiz var. Qoy bu vilayətin sakinləri bu kitabı əllərində tutduqları vaxt daim öz keçmişlərini yaşadıqları dövrlə müqayisə etsinlər."** [6, VI].

İ.Şopenin nəzərdə tutduğu müqayisənin nəticələrini isə Dağlıq Qarabağ ətrafında 1988-ci ildən başlamış hadisələrin timsalında öz doğma yurd-yuvalarından didərgin düşmüş azərbaycanlılar indi yaxşı görə bilərlər.

İ.Şopenin müəllifi olduğu 1831-ci ilin Kameral siyahısı Erməni vilayətində bu tipdən tərtib edilən ilk belə sənəd deyildi. Türkmənçay müqaviləsinin şərtlərinə görə Qacarlar hökuməti bu xanlıqlara aid bütün maliyyə-vergi sənədlərini 6 ay ərzində Rusiya hökumətinə təqdim etməli idi ki, yeni idarəçilər keçmiş xanlıqların ərazisində yığılan vergilər haqqında aydın təsəvvürə malik olsunlar və vergi yığanda həmin sənədə əsaslansınlar. İrəvan xanlığında tərtib olunan bu tipli əsas sənəd **İrəvan xanının vəziri** (onu maliyyə naziri də adlandırırlar) ***Mirzə İsmayılın*** tərtib etdiyi maliyyə sənədləri idi. Bu sənədlərin saxtalaşdırılacağından və vergilərin az göstəriləcəyindən şübhələnən **İrəvan Əyaləti İnzibati İdarəsi** onu yoxlamış və ciddi olmasa da bəzi uyğunsuzluqlar aşkar etmişdi.

Naxçıvan əyaləti üzrə İ.Şopendən əvvəl tərtib edilmiş sənədlərdə vəziyyət daha dolaşıq idi. Naxçıvan əyaləti üzrə

vergi yığmaq üçün Paskeviçin tapşırığı ilə **general Merlini** tərəfindən tərtib edilmiş Kameral təsvirlə (1828) yanaşı, başqa sənədlər də mövcud olsa da, onların heç biri İnzibati İdarəni və onun komandanı Paskeviçi qane etməmişdi. Bu cür sənədlərdən ***ikincisi*** Erməni vilayəti üzrə İnzibati İdarənin müşaviri **Petrikov** tərəfindən tərtib olunmuş **Raport**, ***üçüncüsü*** **Polkovnik Voljinskinin** təqdim etdiyi məlumatlar, ***dördüncüsü*** **Naxçıvan Naibi Ehsan xanın** özündən alınan bilgilər, nəhayət, ***beşincisi*** rus məmurlarının əyalət sakinlərindən topladığı məlumatlar idi. 5 mənbədən əldə edilən məlumatların müqayisəsi zamanı müxtəlf rəqəmlər və fərqlər aşkar edilmiş, Ehsan xanın məlumatları isə ən çox şübhə doğurmuşdu. Ona görə də **Feldmarşal Varşavski qraf Paskeviç İrəvanski** milliyətcə fransız olan İvan Şopeni dəvət edərək ona belə bir təklif etmiş, Şopen də onun etimadını doğrultmuş və yuxarıda adını çəkdiyimiz kameral siyahılar və onların təhlilindən ibarət olan və Demidov mükafatına layiq görülən kitab ortaya çıxmışdır.

**Biz həmin Kameral təsvir sənədlərindən istifadə etməklə o qədər də uzaq olmayan tariximizi, əhalinin etnik tərkibini, yerdəyişmə dinamikasını, işğaldan sonra İrandan və Türkiyədən Qafqaza, xüsusilə Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarına köçürülən ermənilərin sayını və əhalinin etnik tərkibinin onların xeyrinə necə dəyişdirilməsinin şahidi oluruq.**

1831-ci ildə keçmiş Naxçıvan və İrəvan xanlıqlarının ərazilərində tərtib olunmuş kameral təsvir sənədlərini çox vaxt **"Şopenin siyahıları"** adladırsalar da, onların hazırlanmasında digər məmurlar da iştirak etmişlər. Belə ki, Göyçə mahalının 1831-ci ilə aid Kameral təsvir sənədini qeydiyyatçı **Arxip Rıjkov** tərtib, İ.Şopen isə təsdiq etmişdir.

Osmanlı işğalı dövründə tərtib edilmiş sənədlərdə Göyçə mahalı haqqındakı məlumatları nəzərdən keçirməzdən qabaq





**"Göyçə"** adının coğrafi və inzibati-ərazi vahidi kimi nə vaxtdan meydana çıxmasına toxunmaq lazım gəlir.

**"Göyçə"** adına ilk dəfə Zeynəddin bin Həmdullah Qəzvininin **"Zeyle tarix-e qozide"** ("Seçilmiş tarixə əlavə") əsərində rast gəlinir. Hicri-qəməri tarixlə 744-cü ildə (miladi tarixlə 1343-1344-cü il) baş vermiş hadisələri nəql edən Qəzvini yazır: "Əmirlər (çobanilər) Şənb-i Qazanda olduqları vaxt xəbər çatdı ki, sultan Əbu Səidin Ruma göndərdiyi və Qarahisar qalasında məhbus olan əmir **Surğan əmir Çoban oğlu** qalanın kutvalını öldürüb çoxlu adamla bu tərəfə gəlir. Yağı Basdı və Məlik Əşrəf onu qarşılamaq adı ilə Naxçıvan və Şərura getdilər və Məmuriyyədə bir-biri ilə qarşılaşdılar. Oraya çoxlu qoşun toplandı. Oradan Qəsrtağa və Əmir Çobanın yaylağı olan və həqiqətən çox gözəl yay məskəni sayılan **Gökcə Dənizə** getdilər. İki aya yaxın orada qaldılar" [7, 16]. "Surğan və Yağı Basdı Saray Süleyman Bahadır yolu ilə Naxçıvanda Məstəkuhun ətəklərindən keçib Məmuriyyədə məskən saldılar. Sonrakı gün Araz çayından keçib **Gökcə Dəniz** yolu ilə Arrana getdilər"[7, 18].

Əmir Teymurun 1386-cı ildəki yürüşlərindən bəhs edən müəllif daha sonra yazır: "Təbrizin xaraba qaldığından, rəiyyətin taqətsizliyindən və çıxılmaz vəziyyətindən xəbərdar olan kimi mərhəmət göstərib onlardan yalnız nal haqqı aldı və o vəchin (toplanmasını) xacə Nizaməddin Yəhya Semnaniyə tapşırdı, özü Təbrizdən Naxçıvan yolu ilə **Göycə-Dənizə** getdi, bir gün Əlincə qalasının ətəklərində vuruşdu və qışda Qarabağa gedib orda qışladı»[7, 52].

Göründüyü kimi, ərazinin adından **"Gökcə Dəniz"** olaraq bəhs edilir.

Yazıya alınma tarixini 1453-1461-ci illər arasına aid etdiyimiz "Kitabi-Dədə Qorqud"da da bu ada iki yerdə rast gəlirik.

**"Qazan bəy oğlu Uruz bəyin dustaq edildiyi boy"**un Drezden nüsxəsinin 126-cı səhifəsində Qazan xanın dilindən deyilir: "Mən bu oğlanı alayın, ava gedəyin. Yedi günlük azuğa çıqayın. Oxatdığum yerləri, qılıc çalıb baş kəsdiyim yerləri göstərəyim. Kafir sərhədinə, Cızığlara, Ağlağana, **Göyçə dağa** aluban çıqayın. Sonra oğlana gərək olur, a bəglər!"-dedi [8, 80].

**"Uzun Qoca oğlu Səgrək boyu"**nda isə belə deyilir **(Drezden nüsxəsi, 255-ci səhifə):**"Meyxanədə beş gün yemə-içmə oldı. Andan Şiröküz ucundan **Gökcə dənizə** dəkin el çarpdı" [8, 145].

**"Göyçə dağı"** ifadəsinin meydana çıxdığı ilk yazılı əsərin isə hələlik "Kitabi-Dədə Qorqud" olduğu anlaşılır.

**"Göyçə"** adının inzibati-ərazi vahidi kimi işlədilməsinə isə ilk dəfə Qaraqoyunlu hökmdarı Cahanşahın (1436-1467) fərmanında rast gəlinir. Onun 1449-cu ildən sonra, 1462-ci ildən əvvəl imzaladığı tarixi olmayan bir fərman var ki, burada **"Göyçə vilayəti"** ifadəsi işlədilir [9, 164].

Qeyd etmək lazımdır ki, Qaraqoyunlu hökmdarı Cahanşah 1441-ci ildə tarixi bir səhvə yol vermiş, erməni katalikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə, Qərbi mahalının Valarşabad kəndinə, indiki adı ilə Eçmiədzinə köçürülməsinə razılıq vermiş, bununla da yerli türk əhalinin gələcək faciələrinin təməlini qoymuşdur.

Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin 1468-ci, Şah I İsmayılın isə 1503-cü il tarixli fərmanlarında da **Göyçə vilayətinin** adı çəkilir.

Böyük Azərbaycan hökmdarı Uzun Həsənin (1468-1478) tapşırığı ilə yazılmış **"Oğuznamədə"**–Əbu Bəkr Tehraninin **"Kitabi-Diyarbəkriyyə"** əsərində oğuz türklərinin soy-kökündə duran Oğuz xaqanın Göyçə dənizi ətrafında yaşadığı və burada dəfn olunduğu qeyd edilir. Xanlar xanı Bayındır xan





və bir çox digər oğuz sərkərdələri də özlərinin ata-baba yurdu olan bu diyarda fəaliyyət göstərmiş, burada dünyalarını dəyişmiş, dəfn olunmuşlar [10, 46-47].

Şah İsmayılın 1500-cü ildəki Ərzincan yürüşünü təsvir edən prof. O.Əfəndiyev yazır:"1500-cü ilin yazında İsmayıl Ərcüvandan Araz çayının şimalındakı dağlıq rayona, **Göyçə gölünün** cənub sahillərinə doğru hərəkət etdi. İbrahim Əmininin verdiyi məlumata görə, bu vilayətdə İsmayılın qoşununun tərkibində ərəşli və zülqədərli tayfaları çıxış edirdilər" [11, 44]. Müəllif təxminən 1.500 tərəfdarı ilə yürüşə başlayan İsmayılın qoşununun Ərzincanda 7.000 nəfərə çatdığını bildirir [11, 45].

Bəzi tədqiqatçılar, o cümlədən İ.Şopen **"Göyçə"** sözünün etimologiyasını **"göy"**, **"mavi"** sözü ilə bağlamağa çalışsalar da [6, 249; 6, 395; 12, 211], araşdırmalarımız nəticəsində belə bir ehtimal irəli sürə bilərik ki, **bu toponimlər bir vaxt buralarda yaşamış gökcə/göyçə adlı türk tayfasının adından yaranmışdır.** Gökçə tayfasına mənsub olanların varislərinin hazırda Türkiyədə geniş yaşayış arealı təsbit edilmişdir. Məsələn, Tokat vilayətinin Niksar ilçəsində **Gökçəli** adında qəsəbə, Afyonkarahisar vilayətinin Dinar ilçəsində, Amasya vilayətinin Göynücək ilçəsində, Bayburt vilayətinin Mərkəz ilçəsində, Biləcik mahalının Bozüyük ilçəsində, Bingöl vilayətinin Adaklı ilçəsində, İğdır vilayətinin Qaraqoyunlu ilçəsində, Sivas vilayətinin Yıldızeli ilçəsində **Gökçəli adlı kəndlər,** İstanbulun Çatalca ilçəsində, Qaziantepin Nizip ilçəsində, Qəhrəman Maraşın Andırın ilçəsində, Malatya vilayətinin Pötürge ilçəsində, Ordu vilayətinin Kumru ilçəsində, Samsun vilayətinin Çərşəmbə ilçəsində, Adana vilayətindəki Yürəyir ilçəsində **Gökçəli adında məhəllələr** vardır.

Bu yaxınlarda İraqın Mosul şəhərinin **DAEŞ(İŞİD)** terrorçularından təmizlənməsi zamanı burada **"Gökçəli"** məhəllə-

sinin varlığının da şahidi olduq. Həmin ərazilərin əsrlər boyu Osmanlı imperatorluğuna məxsus olduğunu nəzərə alsaq, bu fakt əlbəttə, təəccüb doğurmamalıdır. Hazırda da gökçə tayfası Türkiyədən başqa, Mosul və Kərkük şəhərlərinin yaxınlığında yaşayır.

**"Gökçə"** və **"Gökçəli"** ilə yanaşı, **"Gökçələr"** kimi yer adlarına da Türkiyədə bir çox yerdə rast gəlinir və **bu sözün tayfa mənsubiyyətini ifadə etməsi şübhə doğurmur.** Məsələn, Türkiyənin Adana vilayətinin Seyhan ilçəsində, Balıkəsir vilayətinin İvrindi ilçəsində, Biləcik vilyətinin Gölbazarı ilçəsində, Bursa vilayətinin Harmancıq ilçəsində, Dənizli vilayətinin Tavas ilçəsində, Manisa vilayətinin Akhisar ilçəsində, Muğla vilayətinin Milas ilçəsində, Sakarya vilayətinin Akyazı ilçəsində, Trabzon vilayətinin Düzköy ilçəsində, Kocaeli vilayətinin İzmit ilçəsində **"Gökçələr" adlı məhəllələr,** Çankırı vilayətinin Çerkeş ilçəsində, Gümüşxana vilayətinin Şiran ilçəsində, Kastamonu vilayətinin Cidə ilçəsində, Kütahya vilayətinin Altıntaş və Simav ilçələrində, Zonquldaq vilayətinin Çaycuma ilçəsində **"Gökçələr" adlı kəndlər** vardır.

Türkiyəli tədqiqatçı Bürhanəttin Akbaş Bozox türkmənlərinə aid etdiyi **gökçəli oymaqlarının** geniş siyahısını verir:

**17. Gökçəli obaları. (Mersində Dəliçay, Mezitli dərəsi və Bolkar dağlarına qədər uzanan ərazidə yaşayırlar):** 1.Əlixanlı; 2.Arşınlı; 3.Arzular; 4.Əsri(yak); 5.Baltalı; 6.Boloxlu; 7.Çimirli; 8.Çaylaq; 9.Çoğköylü; 10.Döyünlü; 11.Əskimustafalı; **12. Hacıgöyçəli;** 13.Həmzəbəyli; 14.Xurmacıqlı; 15.İğdır; 16.Kəlbürcü; 17.Qapmazlı; 18.Qarahəmzəli; 19.Kəsəroğlu; 20.Qocaoğlu; 21.Kiçikhacılı (Qarıncıq); 22.Mahmudfakifli; 23.Oğulbəyli; **24.Ordugöyçəli;** 25.Sapandərəli; 26.Sarıbəyli; 27.Sarıcaorxanlı; 28.Savcılı; 29.Süleymanlı; 30.Useli; 32.Yaqublu obaları.





Məşhur türk tarixçisi **F.Sümər** də **gökçələr** haqqında maraqlı məlumat verir: "Tarsus bölgəsində yaşayan və XIV-XVI əsrlərdə varsaq adlanan türkmən icması boy adları ilə kusun, ulaş, quşdəmür, **gökçəlü** və əlvanlı kimi bir sıra təşəkküllərə ayrılmışdı"[13, 270].

Türkiyə Cümhuriyyətində Konya, Tokat, Əskişəhər, Afyonkarahisar, Kayseri, Ankara və Sivas vilayətlərində əhalisi ancaq qaraçaylılardan ibarət olan 12 kənd vardır. Bu kəndlərdən biri olan **Gökçə Yayla** kəndi Əskişəhər vilayətinin Xan ilçəsində yerləşir.

F.Sümərdən fərqli olaraq, **gökçəli** tayfasını oğuzların Üç Ox boyuna mənsub hesab edən Türkiyəli alim A.Gökbel bu tayfa haqqında geniş və qiymətli məlumatlar verir: "Varsaqlar boy adları ilə ümumi şəkildə quşdəmir, əsənli, gökçəli, əlvanlı,kusun və ulaş kimi bir sıra qəbilələrə ayrılmışlar. Bunların hamısı birlikdə **varsaq boyları** adını daşıyır.

...

**3. Gökçelü**

Tarsus sancağının bir hissəsini təşkil edən əsil Tarsus ərazisində quşdəmir və əsənlidən sonra gökçəli boyu gəlir.Gökçəlilərin yurdu bu gün Mersinin 10 km şərqindəki Dəliçay ilə qərbindəki Məzitli dərəsi arasındakı ərazi olmaqla şimaldakı dağlara qədər uzanır.Başqa bir məlumata görə İğdır adlı iki oymaq... Tarsus məntəqəsindəki Gökçəli boyuna tabe idilər. **Gökçəli boyunun da öz adını digər boylar kimi boy bəyindən aldığı anlaşılır.** Xüsusilə, gökçəli boyunun təməl nüvəsini ***Orduyi-gökçəli camaatının*** təşkil etdiyi rəvayət edilir. **Bu camaatın adındakı Gökçə sözü bir şəxsin adının bu boya verildiyini göstərir.**

Anadoludakı türkmən tayfalarının bir qismi səfəvi hökmdarı Şah İsmayılın hərəkətə başladığı zamanda qızılbaş ittifaqı-

na daxil oldular. Hətta o vaxt Osmanlı İmperatorluğu bunun qarşısını almaq üçün Təkə vilayətindəki qızılbaşlara meyl edən türkmən ailələrinin bir qismini Rumeliyə sürgün etmişdir.

Bundan başqa, Anadolunun Rumeli yaxası da daxil olmaqla müxtəlif yerlərdə, xüsusilə XVI əsrdə **Gökçəli, Gökçələr və Gökçə** adlarını daşıyan kəndlərə də rast gəlirik.

Bu səbəbdən XVI əsrin ikinci yarısında (1584) Filibedə Gökçələr adında bir kəndin olduğu, bizə bunların Gökçəli boyunun bilavasitə davamı ola biləcəyi ehtimalını irəli sürməyə imkan verir.

Bütün bunlardan başqa, XVI əsrdə olmaqla Maraş qəzası, Qara Hayıt nahiyəsində (1563) əhalisi 133 nəfər olan bir kənd, Elbistan qəzasına tabe olan Aynul-Arus nahiyəsində **Gökçə** kəndi və Zamantı qəzası, Pınarbaşı nahiyəsi sərhədlərində **Gökçəköy** adında məzrəələrin mövcud olduğu söylənilir.

Digər yandan, III Murad zamanında Qaraman kəndləri arasında 98 nəfər sakini olan "Gökçə" adında bir kəndə rast gəldiyimiz kimi, 1965-ci ilin siyahıyaalmasına görə də Qaramanın bu günkü mərkəz kəndləri arasında 37 evi və 202 sakini olan "Gökçə" adında bir kəndə də rast gəlirik"[14, 56-57].

Türkiyədəki Amasya vilayətinin Göynücək ilçəsində yerləşən **Gökçəli kəndi** ilə bağlı maraqlı məlumat verilir. Deyilənə görə, **Gökçəli adı kənddəki qədim qalanın komandanının adı ilə bağlıdır. Həmin komandanın adı Gökçə bəy imiş.**

1590-cı ildə tərtib edilmiş İrəvan əyalətinin müfəssəl dəftərində də İrəvan qəzasının İrəvan nahiyəsində **"Göyçəbəyli"** adında kəndə rast gəlinir [15, 124].

1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndə Şürəgəl livasında **"Göyçə"** adlı kəndlə yanaşı [15, 99], Həsən İsmayıl oğlunun adına olan timar kimi qeydə alınmış **"Molla Göyçə" adında kənd** də vardır [15, 99]. Əgər "Göyçə" toponiminin





**"göy"**, **"mavi"** sözlərindən yarana biləcəyi ehtimalı varsa, **"Göyçəbəyli"** və **"Molla Göyçə"** kəndlərinin şəxs adından yaranmasına heç bir şübhə ola bilməz.

Bir sıra müəlliflər XVII əsrdə yaşadığı güman edilən böyük türk aşıq-şairi **Qaracaoğlanın** varsaq yurdu Fekenin (Adana vilayəti) **Gökçə** kəndində doğulduğunu yazırlar [16, 17].

Bütün bu yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki:

***a) "Göyçə" adı A.Gökbelin yazdığı kimi boy bəyinin adından götürülmüşdür;***

***b) Göyçəli tayfası Üç Ox oğuzlarından olan varsaq türkmənlərinin 6 boyundan biridir (Üç Ox oğuzlarının adı Dədə Qorqud dastanlarında "İç Oğuz" kimi qeyd edilir);***

***c) Göyçə mahalı öz adını təxminən XIII-XIV əsrlərdə bu ərazilərdə məskunlaşmış göyçə/gökçə tayfasının adından götürmüşdür;***

***d) müxtəlif müharibələr, o cümlədən I Şah Abbasın 1603-cü ildə İrəvan əyalətini (Çuxursəd bəylərbəyliyini) osmanlılardan geri aldığı hadisələr zamanı həyata keçirdiyi "yandırılmış torpaq" taktikası ilə əlaqədar olaraq burada yaşayan gökçələr Osmanlı İmperatorluğuna köç etmiş, amma onların adı həmin ərazidə qalmaqda davam etmişdir.***

1590-cı il tarixli **"İrəvan əyalətinin müfəssəl dəftəri"**nə görə İrəvan əyaləti aşağıdakı nahiyələrdən ibarət idi: İrəvan, Karbi, Naxçıvan, Məvaziyi-Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Ağcaqala, Karni, Vedi, Abaran, Şərəbxana, Talin, Ərmus, Abnak, Aralıq, Azadcıran, Şorlut, Dərənürgüt, **Zar, Zebil,** Əlincə, Sisyan. Bu nahiyələrdən ikisi-Zar və Zebil nahiyələri Göyçə mahalının ərazisini əhatə edirdi. Həmin nahiyələrdəki kəndlər isə bunlar idi.

...rbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Zar nahiyəsi:** Leyv, Zod, Qılıçlı Məzrəsi, Qarasaqqal, Pirus, Yellidərə, Qızılca, Nəhadək, Daşkənd, Damğa, Qarabulaq, Zar, Çərikni(?), Dəstək, Kəlavəçər, Ağkilsə, Ayrıman(?), Günlü, Barrnışa(başqa adı Qaragözdür), Çiçəkli, Bintə(?), Salaməleyk, Canan(başqa adı Cahanşahdır), Xüregid, Yenicəyi-Polad, Ağcakənd kəndləri.

**Zebil nahiyəsi:** Çərəkdar, Uşaqcıqlar, Həmzə,Toz, Saray (başqa adı Əminkənddir), Altunküşnü (başqa adı Məlikkənddir), Baş Zebil,Yenicə, Xordegir, Nahiyəyi-Məşhəd, Çivangərəkməz(başqa adı Qaşqayoldur), Əstük, Göyçə (başqa adı Suaçırdır), Ərkli, Şişlik, Qalagöy, Dəvəçuxur, Palıdlıq, Armudluq, Vənktağ, Başqa Çərikni(?), Martnos, Muz(?), Mərcimək kəndləri; Durna qoruğu, Muncuqlu, Orduçay, Yürəkir, Əyridərə, Qaraxaç, Gəlinqaya, Sərçəli adambasar, Qorxmaz gədiyi, Keçi beli, Dikdaş, Ağyataq, Qundaq, Səfərçi, Qaragöl, Qanlıca, Həmzəçəmən, Dovşanlı yaylaqları [15, 143-144].

Zar nahiyəsindəki Zod, Qarasaqqal,Yellidərə, Qızılca, Daşkənd, Zar, Ağkilsə, Zebil nahiyəsindən isə Baş Zebil, Göyçə, Şişlik kəndlərinin adlarına Göyçə mahalının sonrakı dövrlərində də rast gəlirik. Bəzi kəndlərin adı olduğu kimi, bəziləri isə müəyyən dəyişikliklərə uğrayaraq öz varlığını davam etdirmişdir. Məsələn, Zar nahiyəsindəki Yellidərə fikrimizcə Yellicə, Zar və Zebil kəndləri Zarzebil, Şişlik kəndi isə Şişqaya adını almışdır.

Bu sənəddə İrəvan nahiyəsində başqa bir Zar kəndinə, ən maraqlısı isə **Göyçəbəyli** adında kəndə rast gəlinir.

1590-cı ilə aid müfəssəl dəftər hələ Azərbaycan dilində nəşr olunmadığına görə, Zar və Zebil nahiyəsində yaşayan əhalinin siyahısı ilə tanış olmaq mümkün olmadı. Çox güman ki, yaxın gələcəkdə Azərbaycan oxucusu və tədqiqatçılar bu imkanı əldə edəcəklər.





**"İrəvan əyalətinin icmal dəftəri (1728)"**ndə bu əyalətin İrəvan, Naxçıvan və Şürəgəl livalarından ibarət olduğunu öyrənirik. İrəvan livasına aşağıdakı 15 nahiyə daxil idi ki, onlardan ikisi-Göyçə və Məzrə nahiyələri Göyçə mahalına aid idi: Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Dərələyəz **(1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu nahiyə Naxçıvan sancağına aid edilmişdir),**Məzrə, Sürməli, İğdır, Aralıq və Şərur nahiyələri.

**GÖYÇƏ nahiyəsinə bu kəndlər daxil idi:**

Horaduz kəndi. Gəlir: 12.312 ağça

Camalgöl kəndi. Gəlir: 4.190 ağça

Qaradəli kəndi. Gəlir: 2.190 ağça

Böyük Ördək kəndi. Gəlir: 5.067 ağça

Kiçik Ördək kəndi. Gəlir: 1.910 ağça

Göyçə gölün sahilində yerləşən Şahaqçı kəndi. Gəlir: 4.910 ağça

Göyçə gölün sahilində yerləşən Vardenis kəndi. Gəlir: 1.220 ağça

Göyçə dağında olan Kəməndbulaq kəndi. Gəlir: 1.750 ağça

Göyçə dağında olan Buğdayitəpə kəndi. Gəlir: 2.110 ağça

Delican kəndi. Gəlir: 9.902 ağça

Gör kəndi. Gəlir: 10.583 ağça

Qalacıq kəndi. Gəlir: 3.920 ağça

Qaraörən kəndi. Gəlir: 8.445 ağça

Ağkilsə kəndi. Gəlir: 7.325 ağça

Qızılörən kəndi. Kəndin başqa adı Öyüdoyratdır. Gəlir: 6.385 ağça

Göyçə gölün sahilində yerləşən Xaç kəndi. Gəlir: 2.210 ağça

Kənizək kəndi. Gəlir: 10.307 ağça
Zar kəndi. Gəlir: 3.220 ağça
Əlkovas kəndi. Gəlir: 1.999 ağça
Kolanı kəndi. Gəlir: 9.505 ağça
Bədkal (?) kəndi. Gəlir: 7.864 ağça
Dəliqardaş kəndi. Gəlir: 10.807 ağça
Azadkaha kəndi. Gəlir: 8.771 ağça
Keşişkənd. Gəlir: 10.874 ağça
Buzxana kəndi. Gəlir: 5.407 ağça
Əmirkənd. Gəlir: 5.575 ağça
Qarakilsə kəndi. Gəlir: 3.100 ağça
Bədəli kəndi. Gəlir: 1.200 ağça
Altuntaxt (?) kəndi. Gəlir: 4.210 ağça
Altuntaxt (?) kəndi tərəfdə yerləşən Ağbulaq kəndi. Gəlir: 4.500 ağça
Görüçüörən kəndi. Gəlir: 5.210 ağça
Görüçüörən kəndi tərəfdə yerləşən Qızıldaş kəndi. Gəlir: 3.590 ağça
Əmiryar kəndi. Gəlir: 4.920 ağça
Digər Ağkilsə kəndi. Gəlir: 2.890 ağça
Gölkənd. Gəlir: 3.823 ağça
Göyçə gölün müqatiəsi. Gəlir: 300.000 ağça
Böyük Dayə kəndi. Gəlir: 8.239 ağça
Kiçik Dayə kəndi. Gəlir: 6.214 ağça
Dilənçi kəndi tərəfdə yerləşən Canqurtaran kəndi. Gəlir: 2.892 ağça
Bədəlli kəndi. Gəlir: 6.549 ağça
Dəlikdaş kəndi. Gəlir: 5.832 ağça
İynədir kəndi. Gəlir: 2.890 ağça 42
Dilənçi kəndi. Gəlir: 6.890 ağça





Qalacıq kəndi tərəfdə olan Sercan manastırı. Gəlir: 833 ağça
Göyçə nahiyəsi üzrə rahdarlıq bacı. Gəlir: 40.000 ağça
Göyçə gölündə olan Sınukərə (?) vəngi. Gəlir: 230 ağça
**Yekun: 578.770 ağça**.[15, 40-42 ].

**MƏZRƏ nahiyəsinin kəndləri:**
Böyük Yenicə kəndi. Gəlir: 4.582 ağça
Virs kəndi. Kəndin başqa adı Dərbənddir. Gəlir: 10.384 ağça
Qazanlıqdərə kəndi. Gəlir: 8.491 ağça
Canqur kəndi və Əskicanqur məzrə'əsi. Gəlir: 5.520 ağça
Adıyaman kəndi. Gəlir: 7.332 ağça
Uzunxaç kəndi. Gəlir: 6.345 ağça
Kiçik Yenicə kəndi. Gəlir: 7.943 ağça
Salaməleyk kəndi. Gəlir: 7.736 ağça
Göyrənis kəndi. Gəlir: 2.980 ağça
Siyaqud kəndi. Gəlir: 5.787 ağça
Vanevan kəndi. Gəlir: 2.390 ağça
Qızıltəpə kəndi. Gəlir: 4.079 ağça
Qaraköynək kəndi. Gəlir: 1.959 ağça
Karçan kəndi. Gəlir: 225 ağça
Qızılca kəndi. Gəlir: 2.320 ağça
Ağcakelkid kəndi. Gəlir: 2.400 ağça
Vəlikənd. Gəlir: 1.888 ağça
Qazançı kəndi. Gəlir: 1.989 ağça
Döyürək kəndi. Gəlir: 4.996 ağça
Nahdam kəndi. Gəlir: 2.000 ağça
Yalaqlı kəndi. Gəlir: 3.813 ağça
İrəkənd. Gəlir: 1.250 ağça
İlanlı kəndi. Gəlir: 2.590 ağça
Keşişkənd. Gəlir: 1.965 ağça
Kediqarabulaq kəndi. Gəlir: 2.421 ağça

Qızılkilsə kəndi. Gəlir: 2.190 ağça
Söyüdlü kəndi. Gəlir: 5.230 ağça
Qırxbulaq kəndi. Gəlir: 7.788 ağça
Basarkeçər kəndi. Gəlir: 6.704 ağça
Ərküş kəndi tərəfdə olan digər Keşişkənd. Gəlir: 2.110 ağça
Məraq kəndi tərəfdə olan Solaq kəndi. Gəlir: 2.800 ağça
Ağcaqala kəndi tərəfdə olan Quşçu kəndi. Gəlir: 3.000 ağça
Həsənkənd tərəfdə olan Dəli Ağacan kəndi. Gəlir: 2.980 ağça
Xatunkənd. Gəlir: 6.151 ağça
Ağcaqala kəndi. Gəlir: 4.772 ağça
Məraq kəndi. Gəlir: 4.127 ağça
Məzrə`ə kəndi. Gəlir: 8.795 ağça
Qaraçubuq kəndi. Gəlir: 5.474 ağça
Zod kəndi. Gəlir: 7.214 ağça
Göldək kəndi. Gəlir: 4.971 ağça
Çətən kəndi. Gəlir: 5.431 ağça
Ərdanuc kəndi. Gəlir: 4.399 ağça
Göyçə və Məzrə`ə nahiyələrinin rahdarlıq bacı – 20.000 ağça
Əyricə kəndi tərəfdə olan Şahnəzər kəndi. Gəlir: 2.191 ağça
Əyricə kəndi. Gəlir: 4.858 ağça
Varissiz ölənlərin mirasının satışından xəzinənin gəliri: 5.200 ağça

**Yekun: 219.792 ağça.** [15, 45-47].

Bu sənədlərdə adları çəkilən kəndlərin nə qədər vergi ödəməsinin göstərilməsi maraq doğurur. Adları bizə tanış olan kəndlərə gəldikdə isə, Göyçə nahiyəsinə daxil olan Vardenis, Buğdayıtətə(Buğdatəpə), Ağkilsə, Zar, Kolanı, Qarakilsə, Altuntaxt, Ağbulaq, Digər Ağkilsə və Göl kəndlərini, Məzrə nahiyəsinə daxil olan Adıyaman, Qızılca, Qırxbulaq, Basarkeçər, Məzrə, Zod və Ərdanuc **(1831-ci ilin Kameral təsvirindəki Ardanış kəndi çox güman ki, həmin kənddir)**, eləcə də adı





ilk dəfə rast gəlsə də, maraq doğuran Dərbənd kəndini göstərə bilərik. Sənəddən həm də aydın olur ki, Göyçə nahiyəsindən əldə edilən gəlir Məzrə nahiyəsindən xeyli çox imiş.

"İrəvan əyalətinin icmal dəftəri"ndə (1728) **Göyçə dağında** yerləşən Kəməndbulaq və Buğdatəpə kəndlərinin adı çəkilir. 1831-ci ilə aid Göyçə mahalının Kameral təsvirinə yazılan izahat yazısında isə **Göyçə** adında dağ yoxdur, halbuki yuxarıda sitat gətirdiyimiz **"Kitabi-Dədə Qorqud"**da da **Göyçə dağının** adına rast gəlmişdik. Görünür, Nadirdən sonra boş qalan Göyçə mahalına 1814-cü ildə köçürülən qarapapaqlar İ.Şopenin yazdığı kimi doğrudan da buradakı yer-yurd adalarının çoxunu bilmədiyindən çox vaxt yeni adlar qoyurdular. Haqqında söhbət gedən Kəməndbulaq bə Buğdatəpə kəndlərindən Göyçə dağının 1831-ci ildəki adını fikrimizcə təsbit etmək mümkündür. Çünki 1831-ci ilin kameral təsvirində Göyçə mahalındakı boş kəndlərin siyahısında Buğdatəpə kəndinin də adı çəkilir. Onun haqqındakı məlumat belədir:

**"GÖYÇƏ MAHALININ BOŞ KƏNDLƏRİ.1831-ci il".**

**1.BUĞDATƏPƏ KƏNDİ. Ördəkli və Bığlı Hüseyn kəndlərinin arasında yerləşir" [4].**

Dərəçiçək mahalının 1831-ci ilə aid Kameral təsvirinə görə, Böyük Ördəkli kəndi Dərəçiçək mahalında yerləşir və yaşayış olan kəndlərin siyhısında 34-cüdür.

Göyçə gölünün sahilində, Böyük Ördəkli kəndi ilə Zəngi çayının mənbəyi (məlum olduğu kimi, Zəngi çayı öz mənbəyini Göyçə gölündən götürür) arasında yerləşən Kiçik Ördəkli kəndi isə Dərəçiçək mahalındakı boş kəndlərin arasındadır və Sərdarın vaxtında orada qarapapaqların yaşadığı qeyd edilir.

Dərəçiçək mahalının Kameral təsvirinə izahat yazısında

mahalın cənubda Ağmanqal dağı və Qırxbulaq mahalı, şərqdə isə Göyçə gölü ilə həmsərhəd olduğu, Qırxbulaq mahalının Kameral təsvirinə yazılmış izahat yazısında isə bu mahalın şimalda Dərəçiçək mahalı, şərqdə isə Ağmanqal dağı ilə həmsərhəd olduğu qeyd edilmişdir.

Yuxarıdakı məlumatları nəzərə alaraq, düşünə bilərik ki, Göyçə dağı Göyçə mahalının Kameral təsvirindəki izahat yazısında *"zirvəsi daim qarla örtülü olan Böyük Ağmanqal dağı Göyçə mahalını Qırxbulaq mahalından ayırır"*-kimi təqdim olunan **Böyük Ağmanqal** dağıdır, çünki coğrafi mövqeyindən başqa, həm də təsvirdən məlum olur ki, **Böyük Ağmanqal Göyçə mahalının ən böyük dağıdır və Göyçə dağı adını da mahalın simvolu, rəmzi olaraq ancaq o daşıya bilərdi.**

Kameral siyahının tərtib edildiyi dövrdə İrəvan əyalətində və o cümlədən Göyçə mahalında işlədilən çəki və ölçü vahidləri, əmtəələrin qiyməti də İ.Şopen tərəfindən ətraflı təsvir edilmişdir.

İrəvan əyalətində ən ağır çəki vahidi olaraq **xalvar** işlədilirdi. **Naxçıvan xalvarı** ilə **İrəvan xalvarı** isə bir-birindən fərqlənirdi. Brokhauz və Yefronun Ensiklopediyasına görə İrəvan xalvarı 30 puda bərabər idi, 1 pudun 16,38 kq olduğunu nəzərə alsaq, 1 İrəvan xalvarı 491 kq-a bərabər idi. 1 xalvar eyni zamanda 10 taçkırə və ya səmərə bərabər olduğuna görə, buradan da 1 səmər yükün 49,1 kq olduğu aydınlaşır. 1 taçkır isə 10 batmana bərabər olduğuna görə, 1 batmanı 4,9 kq qəbul etmək olar.

Şopenə görə 1 İrəvan xalvarı 27 pud, 32 funt 12 zolotnikə bərabərdir. 1 pudun 16,38 kq, 1 rus funtunun 1/40 puda və 96 zolotnikə bərabər olduğunu nəzərə alsaq 1 xalvar təxminən 455, 5 kq-a bərabər olur.

Batmanla yanaşı, məişətdə ən çox işlədilən başqa bir çəki girvənkə idi. 1 girvənkə isə 1 rus funtuna (409 qr) yaxın olmaqla 400 qr-a bərabər idi.





Məsafə vahidi kimi Rusiya İmperiyasının vaxtında verstdən istifadə edilirdi. 1 verst isə 1,0668 km-ə bərabər idi. Şərq ölkələrində məsafəni təyin etmək üçün **ağacdan** istifadə olunurdu. Qədim zamanlardan 1 saatlıq yolun tamamında ağac dirək basdırırmışlar və "ağac" termini də oradan yaranmışdır. Şopen qeyd edir ki, 1 ağac 7 verstə bərabərdir. Həmin hesabla bu məsafə təxminən 7,5 km-ə yaxındır.

Ərazi vahidi kimi də xalvar, batman və səmər kimi vahidlərdən istifadə edirdilər. 1 xalvar ərazi dedikdə 1 xalvar taxıl toxumunun səpildiyi ərazi nəzərdə tutulurdu. Amma məhsuldarlığına görə müxtəif torpaqlara aydındır ki, müxtəlif miqdarda toxum səpildiyinə görə, ərazi vahidi kimi istifadə olunan xalvar, batman və taçkir(səmər) yayğın termin idi. Müxtəlif müəlliflər müxtəlif rəqəmlər yazsa da, 1 xalvar ərazi üçün ən azı 1,5 desyatin ərazini qəbul etmək lazımdır ki, bu da 2 hektara yaxın ərazi demək idi.(1 desyatin ərazı 1,09 ha-ya bərabərdir).

İrəvan xanlığının işğalı ərəfəsində burada hər 3 qonşu dövlətin pulu işləyirdi və onların arasında mübadilə vardı. Mübadilə ilə məşğul olan xüsusi adamlar müxtəlif mübadilə sxemlərindən istifadə edərək varlanırdılar. Əyalətdəki ən bahalı valyuta Qacarlar dövlətinin pul vahidi olan qızıl tümən idi və 1 tümən 4 gümüş rus rubluna bərabər idi. 10 sahibqıran bir tümənə, 1 sahibqıran 40 gümüş qəpiyə bərabər idi. 2 pənahabad 1 sahibqırana, 1 pənahabad isə 10 şahıya və ya 500 dinara bərabər hesab olunurdu. Dinar yalnız hesablamalarda işlədilən şərti vahid idi və dövriyyədə yox idi.50 dinar 1 şahı, 1 şahı isə 2 qəpik gümüş pula ekvivalent idi. Ən ucuz pul isə misdən kəsilən və **"qarapul"** adlanan sikkə idi.

Osmanlı sikkələrindən ən bahalısı qızıl **mahmudi** idi və 1 mahmudi 1 qızıl tümənə və ya 4 gümüş rubla bərabər idi. Dövriyyədə yarımmahmudi və gümüş pulla 1 rubl 40 qəpiyə

bərabər olan **darülxələf** də mömcud idi. 1 quruş 20 gümüş qəpiyə, ən ucuz mis para 1 gümüş qəpiyə bərabər idi.

Nəhayət, qeyd etmək lazımdır ki, istər daşınan, istərsə də daşınmaz əmlakın miqdarı üçün **"axça"** deyilən termindən istifadə edilirdi. İstənilən mülk 6 axçadan ibarət idi, hər axça isə 20 stilə bərabər hesab olunurdu. Başqa sözlə, mülk bütövlükdə 120 stilə bərabər götürülür və hər bir mülkiyyətçinin bu 120 stildən neçəsinə sahib olduğu nəzərdə tutulurdu.

**"İrəvan əyalətinin icmal dəftəri"**ndə qeyd olunan pul vahidi **axçaya** gəldikdə isə, onu 1327-ci ildə Osman Qazinin oğlu Orxan Qazi kəsdirib dövriyyəyə buraxdırmışdı. 1687-ci ildə yerini yeni pul vahidi **quruşa** verən axça bu tarixdən sonra yalnız bu cür sənədlərdə hesablama üçün istifadə edilirdi, 1 quruş isə 120 axçaya bərabər idi.

Axçanın dəyərini hesablamaq üçün həmin dövrdə bəzi əmtəələrin qiymətinin axça ilə ifadəsinə baxmaq olar. Qiymətlər isə belə idi: 1 kile buğda 30 axça, 1 kile arpa 20 axça, 1 kile mərcimək 18 axça, 1 kile noxud 18 axça və s. idi [17].

**Osmanlı dövlətində işlədilən çəki vahidi kile 25 kq-a bərabər idi.** Buradan da buğdanın 1 kq-nın qiymətinin 1,2 axça, arpanınkının isə 0,8 axça olduğu aydınlaşır. Qüsurlu müqayisə də olsa, 1 axçanın indiki pulla təxminən 30-40 qəpik olduğunu qəbul etmək olar

Göyçə mahalının da daxil olduğu İrəvan əyalətində əkilib-becərilən və təbii ki, əhalinin əsas ərzaq məhsulu olan taxıl bitkiləri haqqında da məlumat vermək lazım gəlir.

İrəvan əyalətində dənli bitkilərdən ən çox səpilən buğda idi. 15.000 xalvar buğda əkini ümumi əkinlərin 56 faizə yaxınını təşkil etməklə ildə 75.000 xalvar məhsul verirdi. Buradan göründüyü kimi, 1 xalvar əkin sahəsindən 5 xalvar taxıl əldə edilmişdi, başqa sözlə, toxum kimi səpilən taxılın hər xalvarı





5 xalvar məhsul vermişdi. Çar Rusiyasında həmin rəqəmləri ifadə etmək üçün **"sam"** deyilən termindən istifadə edilirdi və burada buğdanın məhsuldarlığı **"Sam 5"** olmuşdur. 5.000 xalvar arpa əkininin məhsuldarlığı "sam 6" olduğuna görə 30.000 xalvar arpa, 1.000 xalvar darı əkinindən 10.000 xalvar darı, 2.500 çəltik əkinindən 40.000 xalvar çəltik və ümumilikdə İrəvan əyalətində 155.000 xalvar və ya 610.000 çetver taxıl toplanmışdı. Əyalətdə yaşayan əhalinin adambaşına istehlak etdiyi taxıl 3 çetver qəbul edilirdi ("çetver" "çetvert" sözündən götürülməklə "dörddə bir" mənasını verir, yəni xalvarın dörddə biri). 94.000 çetver isə toxumluq üçün saxlanmışdı. Bu ikisinin cəmi 586.000 çetver olmuş və 24.000 çetver artıq taxıl bitkiləri istehsal olunmuşdur. Ona görə də deyə bilərik ki, İrəvan əyaləti sakinlərini ərzaqla təmin etməyə yararlı idi.

Bu bitkilərdən bəzilərinin qiymətləri isə belə idi: 1 xalvar əla növ buğda 12 rubl, aşağı növlü buğda 6 rubl, arpa müvafiq olaraq 7 və 3,5 rubl, darı 6 və 3 rubl, çəltik 12 və 8 rubl, pambıq 205 və 120 rubl, tütün 160 və 50 rubl və s. idi.

Heyvandarlıq məhsullarından bəzilərinin qiyməti isə belə idi: 1 batman yağ 1-1,6 gümüş rubl, 1 batman yun 0,6-1 rubl, 1 batman pendir 30-40 gümüş qəpik.

Ev heyvanlarının qiyməti: sağmal inək 6-12 rubl, öküz 10-20 rubl, qoyun 2-3 rubl, quzu 0,75-1,5 rubl, at 15-40 rubl və s.

Əhalinin milli tərkibinə gəlincə, Rusiya işğalından sonra Göyçə mahalında 999 müsəlman və 15 erməni ailəsi qeydə alınmışdı (aydındır ki, işğalçıların hakimiyyəti altında yaşamaq istəməyən müsəlmanların bir hissəsi də İrana getmişdir). Əslində isə bu rəqəmi müsəlamanların evlərinin sayı kimi qəbul etmək lazımdır. Çünki bəzi evlərdə iki və ya daha çox ailə vardı. Deyilənləri nəzərə alsaq, 1831-ci ildə Göyçə mahalında 1.255 müsəlman ailəsi yaşayırdı.

1829-cu il rus-türk müharibəsindən sonra Rusiya işğal etdiyi Bəyazid paşalığından 1.485 erməni ailəsini Göyçə mahalına köçürüb onun cənubunda, az bir qismini də qərbində yerləşdirdi. Ermənilərin yaşadığı ərazi SSRİ-nin dövründəki inzibati-ərazi bölgüsünə görə Martuni və Kamo rayonlarına aid edilmişdir.

Bu mahal 1831-ci ilin kameral siyahısında "Göyçə mahalı", 1842-ci ilin kameral siyahısında "Göyçə nahiyəsi" adlansa da, sonradan Erməni vilayətinin ərazisində yaradılan İrəvan quberniyasının tərkibində Novobəyazid qəzası adlandırılmışdır. Qəza mərkəzi olan Kəvərin adını da 1850-ci ildə dəyişib Novobəyazid qoymuşdular [18, 153]. Bu ad Türkiyədən gətirilən ermənilərin Bəyazid paşalığından olmaları ilə bağlı idi. 1959-cu ildə həmin yaşayış məntəqəsi Kamo adlandırılmışdır [18, 157].

Göyçə mahalının yerli müsəlman əhalisinin etnik tərkibi əsasən qarapapaq tayfasına mənsub türk əhali idi. 1831-ci ildə bütün İrəvan əyalətində qeydə alınan 840 qarapapaq ailəsinin 577-i Göyçə mahalında yaşayırdı. Sayca ikinci etnik qrup olan millilər 227 ailə idi (bütün İrəvan əyalətində cəmi 349 ailə). Erməni vilayətində qeydə alınan 666 qaraçorlu ailəsindən 49-u, 631 ayrım ailəsindən 42-i Göyçədə qeydə alınmışdır. Qarapapaqların kərkibaşı tayfasına mənsub olan 13 ailə isə yalnız Göyçə mahalında, mahalın Daşkənd kəndində qeydə alınmışdı ki, onlar 1842-ci ildən əvvəl Daşkəndi tərk edərək ayrıca **Kərkibaşı adlı** kənd yaratmışlar.

**Bununla belə, bütün Erməni vilayətində və Göyçə mahalında müsəlmanların göstərilən sayı 1826-1828-ci ikinci Rusiya-İran müharibəsindən əvvəlki vəziyyəti düzgün əks etdirmir.**

İrəvan xanlığının işğalından sonra həmin ərazilərdə yeni Rusiya idarəçilik sistemi yaradılmasına başlandı. Bu məqsədlə





Qafqazın baş hərbi hakimi Paskeviçin əmri ilə 1827-ci il oktyabrın 6-da **"İrəvanın müvəqqəti İdarəsi"** adlı qurum yaradıldı. Yerli qoşunların kimandanı general Krassovski onun rəisi, işğalçıların əlaltısı olan erməni arxiyepiskopu Nerses isə "Müvəqqəti İdarə"nin üzvü təyin edildilər. Yerli əhali olan türklər dövlət idarəçiliyindən tamamilə məhrum edildilər. Krassovski Nersesə qeyri-məhdud hakimiyyət vermişdi. Erməni azğınlığı qısa müddət ərzində o həddə çatdı ki, hətta Paskeviçin özünü narazı saldı və Krassovskini tutduğu vəzifədən azad etdi, Nersesi isə Bessarabiyaya sürgün etdi. [19, 379].

Yeni rus idarəçiliyi yerli türk əhalini narazı saldığına görə onlar doğma yurd-yuvalarını tərk edib İrana və Osmanlı imperiyasına köçməyə başladılar. Pəmbək və Şurəyellə birlikdə İrəvan əyalətini tərk edən müsəlmanların sayı 12,3-13,5 min nəfərə çatırdı. Potto bu barədə yazmışdı: "Oturaq əhali Arazın o biri tayına keçmişdi. Tərəkəmə tatarların az hissəsi Türkiyəyə, çox hissəsi İrana getmişdi" [18, 334 ].

General Paskeviçin Rusiyanın xarici işlər naziri qraf Nesselroda 27 iyun 1828-ci il tarixli məktubundan bəlli olur ki, həmin ilin birinci yarısında İrəvan xanlığını 4.500 tərəkəmə (elat) müsəlman tərk etmişdi. Belə ki, yerli qarapapaq türklərindən 800 ailə Arazın o tayına köçmüş, bundan başqa qarapapaqlardan 100 ailə, ayrımlardan 300 ailə Qarsa, uluxanlı tayfasından 600 ailə Bəyazid paşalığına köçmüşdü [18, 378].

Qarapapqların xeyli hissəsinin Göyçə mahalından geriyə, İrana qayıtmasını sübut edən arqumentlərdən biri də odur ki, əgər müharibədən qabaq da Göyçədə cəmi 577 qarapapaq ailəsi yaşasaydı, Sərdar onlardan döyüşə 1.000 süvari döyüşçü çıxarmasğı tələb etməzdi, çünki bu rəqəm fiziki cəhətdən ağlabatan deyildi.

Türkmənçay müqaviləsinin 15-ci maddəsi ermənilərin İrandan Erməni vilayətinə köçürülməsinə hüquqi baza yaratdığı kimi, müsəlmanların da İrana köçə biləcəklərinə imkan verirdi. Hər iki tərəfə köçmək istəyən əhali üçün 1 il vaxt qoyulmuşdu. Yuxarıda qeyd etdiyimiz kimi, o vaxt əhali həlledici faktor olduğu üçün İran Qacarlar dövləti də keçmiş təbəəsi olan müsəlmanları öz ərazisinə qaytarmaqda maraqlı idi.

Göyçə mahalının 1831-ci ilə aid Kameral təsvirinə yazdığı izahatda kollejski reqistrator (qeydiyyatşı katib) Arxip Rıjkov "hələ I Şah Abbasın dövründən boş qalmış Göyçə mahalını İrəvan Sərdarı 15 il qabaq qarapapaqlarla məskunlaşdırıb" yazsa da, **İ.Şopen qarapapaqların Göyçə mahalına 1814-cü ildə köçürüldüyünü bildirir** [6, 446]. Bir təsərrüfatçı kimi Sərdar Hüseynqulu xan haqqında çox yüksək fikirlər söyləyən Şopen göstərir ki, əhalinin burada yerləşdirilməsi təkcə iqtisadi məsələ ilə bağlı deyildi, Sərdarın bu təşəbbüsündə başqa məqsəd də vardı. Rusiya İmperiyası 1804-cü və 1808-ci illərdə olduqca strateji əhəmiyyət daşıyan İrəvan xanlığını tutmaq üçün iki dəfə cəhd etmiş və hər dəfə uğursuzluğa düçar olmuşdu. Rusların öz məqsədindən asanlıqla əl çəkməyəcəyini bilən İran Qacarlar dövləti və onun görkəmli nümayəndələrindən olan İrəvan Sərdarı Hüseynqulu xan Qacar da müdafiə tədbirləri görürdü və bir sıra digər tədbirlər kimi, Göyçənin qarapapaqlarla məskunlaşdırılması da belə tədbirlərdən biri idi. Vergidən azad olunmalarının əvəzində, müharibə zamanı Göyçədə yerləşdirilən qarapapaqlar 1.000 nəfər süvari döyüşçü çıxartmalı, xanlığın sərhədlərini Rusiyanın ilhaq etdiyi Şəmşəddil, Yelizavetpol və Qarabağ tərəfdən qorumalı idilər. Əhalisi yenə də qarapapaqlardan ibarət olan Dərəçiçək mahalının imkanları Göyçə mahalından az idi-onlar 600 nəfər süvari döyüşçü çıxarmağa mükəlləf idilər.





Göyçə mahalındakı digər tayfalar-millilər, qaraçorlular, əliqanlılar və başqaları isə qarapapaqlar kimi imtiyazlı deyildilər. Həmin əhali vergi kimi hər binəçəyə görə 7,5 tümən(30 gümüş rubl) pul, məhsulun 30-dan 7 hissəsini, 6 toyuq, 12 yumurta və 3 yük odun ödəyirdilər. (*"Binəçə"* sözü "binə", "binə yeri" sözündən yaranmaqla təsərrüfüt subyektini ifadə edirdi. Bəzən dövlətli bir şəxsin təsərrüfatı, bəzən isə yoxsul yaşayan bütöv bir kənd ***bir binəçə*** sayılırdı.Orta rəqəm isə 7-10 evdən ibarət olmaqla, bir növ kənd təsərrüfatı kooperativini xatırladırdı).

İ.Şopen yazır:"**İrəvan Sərdarı xanlğın Şürəgəllə sərhəddini Qars paşalığına qədər Qafar xanın rəhbərliyi ilə ayrımlı və taşanlı tayfaları ilə, Abaran mahalındakı sərhədləri İsmayıl xan Axsaxlının rəhbərliyindəki seyidli və axsaxlı tayfaları ilə, Pəmbək vilayəti və Qazax distansiyası ilə olan sərhədləri İsmayıl xanın və Mərdan xanın başçılığı altındakı qarapapaq tayfası ilə qoruyurdu. Nəhayət, Göyçə mahalının Şəmşəddil distansiyası, Yelizavetpol dairəsi və Qarabağ vilayəti ilə sərhədləri isə Nağı xanın başçılığı altındakı qalan qarapapaqlarla qoruyurdu [6, 450].**

Xatırladaq ki, İsmayıl xanla onun oğlu Mərdan xanın idarəsi altındakı qarapapaqlar İrəvan xanlığının Dərəçiçək mahalında yaşayırdılar. **1831-ci ildə tərtib edilmiş Kameral təsvirdə Mərdan xanla atası İsmayıl ağa həmin mahalın Qaraqala kəndində qeydə alınmışlar.** Bu isə o deməkdir ki, İrəvan xanlığının 1827-ci ilin oktyabrın 3-də süqutundan sonra xanlığın bir çox qəhrəman müdafiəçilərindən, döyüşçülərindən fərqli olaraq, onlar İrana getməmiş (yaxud getmiş və geri qayıtmışlar) və ruslarla əməkdaşlığa üstünlük vermişlər.

**"DƏRƏÇİÇƏK MAHALININ KAMERAL TƏSVİRİ.**
**1931-Cİ İL**
**№27.QARAQALA KƏNDİ.**
**Qarapapaqlar.**
**Bu kənd Ulaşıq kəndindən 6 verst yuxarıda, cənub-qərbdə yerləşir.**
**1.Mərdan xan İsmayıl ağa oğlu 40 y(onun arvadı və dörd qızı); üç oğlu var: Araz 20 y; Cəfər 8 y; Düşmən 1 y;**
***iki qardaşı:* Məhəmməd 35 y(onun iki arvadı, qızı və oğlu Mədət 1 y); Əhməd 20 y;**
***atası* İsmayıl ağa Əli ağa oğlu 80 y(onun iki arvadı və qızı)"**[20].

Göyçə qarapapaqlarının başçısı Nağı xanın ailəsini mahalın 1831-ci ilə aid Kameral siyahısında görürük:

**"GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ.**
**1831-Cİ İL**
**№3.RƏHMAN KƏNDİ.**
**Qarapapaq tayfası**
**Göyçə gölünün cənub sahilində Zeynal ağa kəndindən sonra üçüncü kənddir. Torpağı dəmyədir, gölün suyundan istifadə edirlər.**
**Buğda, arpa, darı, kətan və başqa şeylər əkirlər.**
**1.Praporşik Kazım ağa Nağı xan oğlu 22 y(onun arvadı və anası).**
**2.Kəndxuda Rəhman Hacı oğlu 60 y(onun arvadı);**
***iki oğlu var:* Hacı 30 y (onun arvadı); Əmrah 20 y"**[4].

Bu sənəddə Nağı xanın adı olmasa da, onun taleyini İrəvan şəhərinin 1831-ci ilə aid Kameral təsvirinə [21] görə müəyyən etmək mümkün oldu. Həmin sənəddə qeydiyyatçı katib Arxip Rıjkov dövlətin xeyrinə müsadirə edilmiş 122 evi 2 kateqoriyaya ayırır: birinci kateqoriyaya Sərdarın tərəfdarı olaraq qaçıb gedənlərin evlərini, ikinci kateqoriyaya isə bütün ailə üzvləri ölmüş evləri aid edir və qeyd edir ki, xüsusi icazə ilə bəzi evlər sahiblərinə qaytarılacaqdır. Bu siyahının başında isə **"qaçıb getmiş Nağı xanın evi və ildə 250 batman meyvə verən 2 əkin günü ərazisi olan bağı"** da var. Beləliklə məlum olur ki, Nağı xan Sərdara sadiq qalaraq onunla İrana getmiş, oğlu Kazım ağa isə öz anası ilə Göyçədə qalmışdır. Kazım ağanın praporşik-çar ordusuna xas olan hərbi çinə malik olması onu göstərir ki, o çar ordusunda xidmətə girmiş və 1829-ci il rus-türk müharibəsində bu ordunun tərkibində fəqlənmiş və hərbi rütbə almışdır... Onun atası Nağı xanın sıralarında olduğu Qacarlara qarşı vuruşacağı ehtimalı azdır. İrana gedən Nağı xanın yanında başqa oğlunun olub-olmaması isə hələlik məlum deyil.

Orta əsrlərdə baş verən dağıdıcı müharibələrin başqa bir tərəfi də vardı-qalib dövlət əraziləri öz əhalisi ilə məskunlaşdırır, məğlub tərəf isə həmin ərazidəki əhalini də özünə məxsus olmaqda davam edən ərazilərə köçürürdü. Bu isə dinc əhali üçün olmazın əzab-əziyyət, müsibətlər gətirirdi. Hüseynqulu xanın bu əraziləri məskunlaşdırarkən gətirdiyi əhalinin bu səbəbdən İran Qacarlar dövlətinin təbəələrindən olması təbii haldır və İrəvan xanlığına köçürülən qarapapaqlar da İrandan, deyilənə görə Maku xanlığından gəlmişdilər.

***Göyçədə sayca ikinci olan və İ.Şopenin məlumatına görə Gərnibasar mahalından buraya gələn 227 milli ailəsinin çoxu 1831-ci ildən sonra bu mahalı tərk edib Vedibasar mahalına və başqa yerlərə getmişlər.***

***1842-ci ilin kameral siyahısında Göyçə nahiyəsində cəmi 16 milli ailəsi qeydə alınıb ki, onların hamısı yeni məskunlaşdırılan Qızılvənk kəndində yaşayırdı.Aşıq Alının qayınatası, 1831-ci ildə mahalın Yarpızlı kəndində siyahıya alınan Nifta-***

*lı Şahəli oğlu da onların arasındadır.* 1842-ci ildə Qızılvənk kəndində 16 milli ailəsindən başqa 8 qarapapaq ailəsi də yaşayırdı [5].

1831-ci ilin siyahısına görə Göyçə mahalındakı 999 müsəlman ailəsində 3.164 nəfər kişi, 2.443 qadın, cəmi 5.607 nəfər müsəlman yaşayırdı. Buradan göründüyü kimi, müsəlman əhalidə hər 100 kişiyə cəmi 77 qadın düşürdü.

**İşğaldan qabaq Göyçə mahalında cəmi 15 erməni ailəsi və 90 nəfər erməni yaşayırdı.** 1829-cu il rus-türk müharibəsindən sonra Türkiyənin Bəyazid paşalığından Göyçə mahalına köçürülmüş 1.485 erməni ailəsi isə Göyçə gölünün cənubundakı 24 boş kəndə yerləşdirilmişdi. Adlarından görünür ki, müharibədən əvvəl həmin kəndlərin hamısında müsəlmanlar yaşamış və çox gümün ki, müharibədən sonra İrana getdilkərinə görə erməniləri həmin ərazilərə yerləşdirmişlər. Həmin 1.485 erməni ailəsində 4.457 kişi, 4.100 qadın, cəmi 8.557 nəfər erməni yaşayırdı. Ermənilərdə hər 100 kişiyə 92 qadın düşürdü.

Kameral siyahıların hər ikisində yalnız kişilərin adları yazılmışdır. Rusiya dövlətinin qanunlarına görə 15 yaşdan yuxarı kişilər ildə 1,2 rubl "başpulu" deyilən vergi verir, 15 yaşdan aşağı oğlan uşaqları və qadınlar vergidən azad idilər. Ona görə də İnzibati idarənin məmurları qadınların adını bu Kameral kiyahılara salmamışdılar. Amma bir çox hallarda, məsələn, Dərələyəz mahalının 1831-ci ilə aid kameral siyahısında da, İrəvan şəhərinin 1831-ci ilə aid kameral siyahısında da qadınların adı qeyd edilmişdir. Göyçə mahalında isə yalnız kişilərin adı qeyd edildiyinə görə, biz olduqca qiymətli məlumatlardan məhrum olmuşuq və araşdırmalarımızı da ancaq kişi adları üzərində aparmalı olacağıq.

Göyçə mahalı üzrə kameral siyahıdakı kişi adlarını nəzərdən keçirdikdə məlum olur ki, başqa mahallarda olduğu kimi





burada da *ən çox rast gəlinən kişi adları* Məhəmməd, Əli, Həsən, Hüseyn, İsmayıl, İbrahim adları olmaqla yanaşı, həmin adlardan yaranmış mürəkkəb adlar da geniş yayılmışdır. Məsələn, Məmmədhəsən, Məmmədhüseyn, Hüseynəli, Həsənəli, Əliqulu, Abbasəli, və s.

*İkinci qrupa* aid edilən adlara isə aşağıdakılar aid edilə bilər: Novruz, Bayram, Məhərrəm, Vəli, Mustafa, Usub, Abbas , Musa, Ələkbər, Tanrıverdi, İmamverdi və s.

*Üçüncü qrup* adlara daha az rast gəlinənləri aid edə bilərik: Qasım, Sadıq, Əsgər, Süleyman, Şahbaz, Salman, Kərim, Allahverdi, Xudaverdi, Mövlamverdi, Qurban, Ələsgər, Rza, Namaz, Ayvaz. Elləz, Aşır, Rüstəm, Mahmud, Nəbi, Qulu, Mirzə və s.

*Dördüncü qrup* adlara nadir rast gəlinən adlar aid edilə bilər: Aydın, Şaban, Dəngiz, Dərviş, Səməd, Osman, Çələbi, Bəxtiyar, Atakişi, Ağakişi, Babacan, Naim, Nail, Sail, Bəkir, Şahqulu, Koləş, Daşdəmir, Dəmir, Hümbət, Yolçu, Həmzə, Davud, Budaq.

Dini motiv daşıyan adlar düzəldilərkən, adətən *–qulu* və *-verdi* sonluqlarından istifadə olunurdu: Əliqulu, Məmmədqulu, Həsənqulu, Hüseynqulu, Abbasqulu, Allahqulu, Tanrıqulu, Rzaqulu, yaxud Əliverdi, Allahverdi, Tanrıverdi, İmamverdi, Pirverdi, Haxverdi, Sübhanverdi.

Əgər uşaq doğulanda onun babası ölmüşdüsə, əksər hallarda ona babasının adını qoyurdular. Bəzən elə olurdu ki, ana bətnində olan uşağın atası vaxtsız rəhmətə gedirdi, bu halda onun adını uşağa verirdilər, məsələn Kameral siyahıda buna nümunə olaraq Yarpızlı kəndində 15 yaşında olan Nağdəli Nağdəli oğlunun adından ata Nağdəlinin 15 il qabaq öldüyünü düşünə bilərək. Hüseynquluağalı kəndinin kəndxudası Hüseynqulu ağa Hüseynqulu ağa oğlunun adının da bu cür meydana çıxması ehtimal olunur.

Bəzi hallarda ailələr yerlərini dəyişib başqa kəndə köçəndə təzə yaşayış məskənində doğulan uşağa **"Qərib"** adını qoyur-

dular və uşağın yaşına görə həmin ailənin qeydiyata götürüldüyü kəndə nə vaxt köçdüyünü müəyyən etmək olurdu. Buna misal olaraq, Aşıq Alinin ailəsinin 1850-ci il ərəfəsində Qızılvənk kəndinə köçdüyünü ehtimal edə bilərik. Çünki onun Nəbi əmisinin 1850-ci ildə Qızılvənk kəndində doğulan oğlunun adını Qərib qoymuşdular.

1831-ci ilə aid Kameral siyahı ilə 1842-ci ilə aid olan Kameral siyahı arasında müəyyən struktur fərqi vardır. Birinci sənəddə əhalinin siyahısı ilə yanaşı, kəndin yerləşdiyi yer, əkinəyararlı ümumi ərazi, kənddəki mal-qaranın ümumi sayı göstərilir, 1842-ci ilə aid sənəddə isə hər bir ailənin mal varlığı ayrıca qeyd olunduğuna görə, ailələrin maddi vəziyyətini izləyə bilirik. Hər iki sənəddə sakinlərin etnik və dini mənsubiyyəti, köçəri və ya oturaq tərzi haqqında da məlumatlar verilir. ***1842-ci ilin kameral siyahısını tərtib edən qeydiyyatçı katib Aleksandr Korallov hər bir kəndin əhalisindən imzaları ilə təsdiqlənən iltizam almışdır ki, kənddə heç kim siyahıdan gizlədilməyib.*** Rusiyanın o vaxtkı qanunlarına görə, əgər kəndxuda kəndə gələn kimisə gizlədib dövlət orqanlarına xəbər verməsəydi, onu 100 rubl cərimə və fiziki cəza gözləyirdi. Sərdarın bütün vergilərdən azad etdiyi göyçəlilər arasında, görünür Rusiya dövlətinə vergi verməmək üçün siyahıya düşməməyə cəhd etmək hallarına da rast gəlinirdi.

Bu kameral siyahılardakı gözə çarpan fərqlərdən biri də 1831-ci ilin kameral siyahısında Göyçə mahalı üzrə qeydə alınmış 35 nəfər ağa, bəy və Sultanın adlarının 1842-ci ilin kameral siyahısında olmamasıdır. ***Görünür, imtiyazlı sinfə aid olan və vergidən azad edilən həmin adamları vergi mükəlləfiyyətli dövlət kəndlilərinin siyahısından çıxarıb xüsusi siyahı ilə qeydə almışlar.***

Göyçə ədəbi mühitinin məşhur simalarını da bu sənədlərdə tapmaq mümkündür. **Məlum olur ki, Aşıq Allahverdi-Ağ**





**Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Aşıq Musa haqqında indiyə qədər bizə təqdim edilən məlumatlar yanlış imiş.** Məsələn, Aşıq Alı 1801-ci ildə Göyçə mahalının Qızılvənk kəndində deyil, 1835-ci ildə həmin mahalın Şışqaya kəndində doğulmuş və onun ailəsi Qızılvənkə sonradan köçmüşdür. 1842-ci ilin kameral siyahısında əsil adı Alımədət olan Aşıq Alının ailəsi budur:

**"İRƏVAN QƏZASI GÖYÇƏ NAHİYƏSİNİN KAMERAL TƏSVİRİ. 1842-Cİ İL.**

**№49. ŞİŞQAYA KƏNDİ**

**Ayrımlı tayfası.**

**Müsəlman dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat tərzi sürürlər.**

**10.Mirzə Ovçu oğlu 41 y; oğlu Almədət 7 y.**

**Əkin yeri yoxdur, 1 atı və 3 baş iribuynuzlu heyvanı var"[5].**

Göründüyü kimi,Aşıq Alı 1835-ci, atası Mırzə isə 1801-ci ildə doğulmuşlar. Halbuki, indiyə qədər atası Mirzənin doğum tarixini Aşıq Alıya aid edirdilər.Bu ailə 1848-1850-ci illərdə həmin mahalın Qızılvənk kəndinə köçmüşdür.

**"GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ. 1831-ci il.**

**№6. QIZILCIQ VƏ YA ABUL KƏNDİ.**

**Qarapapaq tayfası**

**Göyçə gölünün cənub sahilində Dərəçiçək mahalından sonra gələn altıncı kənd.**

Geniş əraziləri və biçənəkləri var. Göyçə gölünün suyundan istifadə edirlər.

**19.Həsən Əli oğlu 50 y (onun arvadı); dörd oğlu var: Əli 20 y; Məmmədhüseyn 15 y; Novruz 10 y; Qurban 7 y"[4].**

Buradakı 15 yaşlı Məmmədhüseyn Şair Məmmədhüseyn kimi tanıdığımız şəxsdir və indiyə qədər yazılıdığı kimi 1801-ci ildə Daşkənd kəndində deyil, 1816-cı ildə Qızılcıq kəndində doğulmuşdur. Bu kəndin sakinləri siyahıyaalmadan sonra yeni yaranan Hacı Muxan kəndinə, Məmmədhüseynin ailəsi isə Daşkənd kəndinə köçmüşdür.

**№40. AŞAĞI KEYTİ KƏNDİ (BAŞQA ADI SALMAN KƏNDİDİR).**
**Milli tayfası**
**Aşağı Keyti kəndi Zod kəndinin cənub tərəfində yerləşir.**

150 xalvara yaxın suvarılan torpaqları, 10 xalvar biçənəkləri var, Keyti çayının suyundan istifadə edirlər.

**16.Aşıq Allahverdi Osman oğlu 40 y (onun arvadı və iki qızı); oğlu Məhərrəm 10 y"[4].**

Bu kəndin milli əhalisi 1842-ci ildən əvvəl buranı tərk etmiş (buradakı ailələrin bir çoxu Vedibasar mahalının 1842-ci ilə aid olan kameral siyahısında aşkar edildi), Ağ Aşıq isə Göyçədə qalmış və yeni yaranan Kərkibaşı kəndinə köçmüşdür.

Aşıq Ələsgərlə Aşıq Musanın adları isə bu kitaba daxil edilən kameral siyahılarda yoxdur, çünki birincisi, 1831-ci ildə Ağkilsə kəndi hələ boş idi və orada heç kim yaşamırdı, ikincisi isə onlar indiyə qədər yazıldığı tarixlərdən xeyli sonra dünyaya gəlmişlər. Oxucuların marağını nəzərə alıb onların qeyd olunduğu sənədləri də təqdim edirik:

**"İRƏVAN QUBERNİYASI, YENİ BƏYAZİD QƏZASI. 1873-cü il. AĞKİLSƏ KƏNDİ**

**9.6.Alməmməd Haxverdi oğlu 49 y; dörd oğlu var: Ələsgər 21 y; Salah 18 y; Xəlil 6 y; Məhəmməd 2 y.**





**24.—Səfər Mustafa oğlu 70 y (*Qazax qəzasının Tatlı kəndindən buraya köçüb*);**

***iki oğlu var:* Kərim 30 y(onun oğlanları: Rəhim 4 y; Şərif 2 y; Namaz 1 y). Musa 20 y"**[22].

Birinci ailədəki 21 yaşlı Ələsgər Aşıq Ələsgərdir və 1821-ci ildə deyil, 1852-ci ildə doğulub.

İkinci ailədəki 20 yaşlı Musa Göyçəli Aşıq Musadır. 1853-cü ildə doğulan Musanın ailəsi Ağkilsəyə Qazax qəzasının Tatlı kəndindən gəlib.

**Bu sətirlərin müəllifinin "Haqq-nahaqq seçilər Haqq divanında" kitabında bu şəxslərin haqqında geniş məlumat verilmişdir** [23].

İ.Şopen ermənilər haqqında maraqlı məlumatlar verir. Bildirir ki, 1831-ci ildə İrəvan əyalətində yerli ermənilər kimi qeydə alınan sakinlər əslində assuruiyalıların, midiyalıların, xüsusulə Babilistan əsirliyindən sonra buralara köç etmiş, erməni dilini və dinini qəbul etmiş yəhudilərin nəsilləridir. Əsil ermənilər isə Gürcüstanda və Kiçik Asiyada yaşayırlar. Onlardan 2 min ailə isə 1804-cü ildə general Sisyanovun Qafqazdakı hərbi əməliyyatları zamanı Tiflisə getmişlər [6, 526].

Olduqca maraqlı faktdır!

1830-cu ildə Türkiyənin Bəyazid paşalığından Göyçə mahalına köçürülən ermənilərin yerləşdirildiyi kəndlər bunlar idi: Nərədüz, Qışlaq, Havar, Qul Əli, Kösə Məhəmməd və ya Gəndzək, Paşa, Dəliqardaş, Gözaçıq, Başkənd, Əyranis, Hətəmxan, Vəliağalı, Təzəkənd, Dəlikdaş, Göl, Aşağı Adıyaman, Yuxarı Adıyaman, Abdulağalı, Gözəldərə, Ağqıraq, Yuxarı Qaranlıq, Aşağı Qaranlıq, Zolaxaç və Kolanıqırılan kəndləri. Sovet dövründə Martuni və Kamo rayonlarının tərkibində qalan bu kəndlərin, göründüyü kimi, hamısının adı türk-müsəlman adlarıdır.

Bu isə onu göstərir ki, köçürülən ermənilərdən qabaq həmin kəndlərin əhalisi də türk-müsəlman olub.

İşğaldan qabaq İrəvan xanlığında 3.498, Naxçıvan xanlığında isə 930 olmaqla, bütün Erməni vilayətində 4.428 erməni ailəsi, cəmi 25.151 nəfər erməni, müharibə nəticəsində İrana gedənləri nəzərə almadan belə 16.078 müsəlman ailəsi və 81.749 nəfər müsəlman yaşayır və müsəlmanlar 76,5 % təşkil edirdilərsə, işğaldan sonra qısa müddətdə, 1828-1830-cu illərdə İrandan 6.949 ailə, (35.560 nəfər), Türkiyədən isə 3.682 ailə(21.666 nəfər), cəmi 10.631 erməni ailəsi(57.226 nəfər) köçürüldü və ermənilər artıq sayca (82.377 nəfər) müsəlmanları üstələməyə başladı [6, 639-642].

Ermənilərin Türkiyədən keçmiş İrəvan xanlığının ərazisinə köçürülməsi 1830-cu ildən sonra da davam etmişdir. Türkiyədən 14 mindən artıq erməni ailəsi-90 min nəfər Göyçə mahalından başqa, Dərəçiçək, Abaran, Sürməli və Talin mahallarına yerləşdirilmişdir [18, 399].

Rusiya hökumətinin 10 aprel 1840-cı il tarixli qanunu ilə Erməni vilayəti ləğv edilərək, onun ərazisi Cənubi Qafqazda yeni yaradılan Gürcüstan-İmeretiya quberniyasına daxil edilsə də, çox keçmədən, 1849-cu il iyun ayının 9-da Rusiya çarı I Nikolayın fərmanı ilə 5 qəzadan ibarət **İrəvan quberniyası** yaradıldı. Bu qəzalardan biri də Göyçə gölü hövzəsindəki əraziləri əhatə edən **Yeni Bəyazid (Novobəyazid)** qəzası idi. Beləliklə, XIX əsrin 30-cu illərinə qədər əhalisinin 98%-nin müsəlman türklərin təşkil etdiyi Göyçə mahalının etnik tərkibi yeni rus idarəçilərin iradəsi ilə, yəni xarici dövlətlərdən buraya köçürdükləri ermənilərlə onların xeyrinə dəyişdirildi.

Məlum olduğu kimi, Rusiyadakı 1917-ci il Oktyabr silahlı çevrilişi nəticəsində Cənubi Qafqazda siyasi dəyişikliklər baş





vermiş və burada 3 yeni dövlət yaranmışdı. Göyçə mahalı və onun bir hissəsi olaraq Göyçə gölü Azərbaycan Xalq Cümhuriyyəti ilə Ermənistan Respublikası arasında mövcud olan sərhəddin bir hissəsini təşkil edirdi. Gölün şərq tərəfindəki ərazi **"Göyçə dairəsi"** inzibati statusu ilə Azərbaycana məxsus idi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qəbul etdiyi son qanun Göyçə mahalı ilə bağlı olmuşdur. 1920-ci il aprel ayının 22-də Şamxor qəzasının yaradılması barədə 5 bənddən ibarət xüsusi qanun qəbul edildi. Şamxor qəzası Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının Yeni Bəyazid qəzasının ona bitişik hissəsində yaradılırdı. Yəni tarixi Göyçə mahalının şimal-şərq hissəsi-Cil, Məzrə, Zod, Basarkeçər, Şişqaya, Sarıyaqub və başqa kəndlər də buraya aid idi. Lakin 5 gün sonra sovet Rusiyasının hərbi müdaxiləsi ilə baş vermiş aprel çevrilişi (1920) həmin qanunun tətbiqinə imkan vermədi [24, 63-64].

Bolşevik Rusiyası Göyçə dairəsini Azərbaycandan qoparıb Ermənistana verdi və keçmiş Göyçə mahalının yerində Hrazdan, Sevan, Martuni, Kamo, Vardenis (Basarkeçər) və Krasnoselo rayonları yaradıldı ki, onlardan yalnız sonuncu 2 rayonda türklər yenə də sayca əksəriyyət təşkil edirdilər.

Sovet hakimiyyəti illərində də Göyçədə həyata keçirilən erməni yönlü siyasət, etnik təmizləmə prosesi davam etdirildi, Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi Göyçədəki yer-yurd adları erməniləşdirildi, SSRİ-nin sonuncu rəhbəri M.Qorbaçovun dəstəyi ilə ermənilərin Dağlıq Qarabağ ətrafında başladıqları münaqişənin nəticəsi olaraq göyçəlilər də öz yer-yurdlarından didərgin düşdülər.

Oxuculara təqdim olunan bu kitab 1831-ci və 1842-ci illərdə Göyçə mahalında yaşamış soydaşlarımızı bizə tanıtmaq-

la mühüm tarixi əhəmiyyət daşıyır. İnanırıq ki, öz ulu keçmişindən yeni-yeni əsərlər yazan göyçəlilər və başqaları üçün bu kitab qiymətli tarixi mənbə kimi faydalı olacaqdır. Bu sətirlərin məllifinin XIX əsrdə Göyçə mahalında və başqa ərazilərdə yaşamış bir sıra məşhur aşıq və şairlərin doğum tarixlərinin dəqiqləşdirilməsindən bəhs edən kitabını [23] da bu qiymətli sənədlərin məhsulu hesab etmək lazımdır.

1988-ci ildə Göyçədən deportasiya edilən türklərin bir qismi xarici ölkələrdə, əsas hissəsi isə Bakıda, Gəncədə və Azərbaycanın digər bölgələrində məskunlaşmışdır. Onlar öz adət-ənənələrini, vətənə bağlılıqlarını qoruyub saxlamışlar.

***Müəllif kitabın elmi redaktoruna, elmi məsləhətçilərinə, rəyçiyə təşəkkürünü bildirir, arxiv materiallarının toplanmasında göstərdiyi köməyə görə mərhum Valeri İsaakoviç Narınskinin xatirəsini minnətdalıqla yad edir.***





## İRƏVAN ƏYALƏTİ
## GÖYÇƏ MAHALININ KAMERAL TƏSVİRİ
## 1831-Cİ İL

### №1. BIĞLI HÜSEYN KƏNDİ VƏ YA SARACLI QIŞLAĞI.

**Qarapapaq tayfası**

***Bu kənd Dərəçiçək mahalının Ördəkli kəndindən Göyçə gölünün cənub sahilində rast gəlinən birinci kənddir.***

Biçənəklərlə örtülmüş çoxlu dəmyə əraziləri var. Gölün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa şeylər əkirlər.

1.Kəndxuda Hüseyn ağa Urhan (Orxan?) oğlu 45 yaşında; (onun arvadı və 3 qızı);

2.Bayram Urhan oğlu 60 y; (onun arvadı və qızı);

***üç oğlu var:*** Əli 20 y (onun arvadı); Əhməd 15 y; Qoca 12 y.

3.Əmir Hüseyn oğlu 50 y; (onun arvadı);

***oğlu*** Hüseyn 25 y; (onun arvadı).

4.Tağı Naim oğlu 42 y; (onun arvadı); iki oğlu var: Əsgər 10 y; Ələkbər 7 y.

5.Həsən Məhəmməd oğlu 25 y (onun arvadı və anası); iki qardaşı var: Hüseyn 15 y; Qulu 10 y;

***qardaşı oğlu*** Babakişi Cəfər oğlu 25 y.

Bığlı Hüseyn kəndi və ya Saraçlı qışlağında türklərin qarapapaq tayfasına mənsub olan 5 ailə, 14 kişi, 12 qadın, cəmi 26 adam yaşayır.

Kənddə 13 öküz, 11 inək, 4 buzov, 4 at, 1 ulaq var.

## №2. ZEYNAL AĞA KƏNDİ

**Qarapapaq tayfası**

***Bu kənd Göyçə gölünün cənubunda. Dərəçiçək mahalından sonra ikici kənddir.***

Torpağı dəmyədir, çoxlu biçənəkləri var, gölün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa şeylər əkirlər.

1.Kəndxuda Zeynal ağa Qalan oğlu 60 y (onun arvadı və 2 qızı); oğlu Qalan 20 y.

2.Musa İmamverdi oğlu 41 y (onun arvadı); üç oğlu var: Mustafa 9 y; Məhəmməd 5 y; Qurbanəli 3 y;

***qardaşı*** Həsən 30 y.

3.İsgəndər Pirverdi oğlu 30 y(onun arvadı).

4.Məhəmməd Hüseyn oğlu 30 y(onun arvadı).

5.İsmayıl Məhəmməd oğlu 25 y(onun anası); qardaşı Bəxtiyar 15 y; iki qardaşı oğlu var: Oruc Əhməd oğlu 12 y; Vəlican 10 y.

6.Məmmədbağır Həsən oğlu 35 y(onun arvadı); oğlu Məmmədsadıq 1 y;

***qardaşı*** İrza 25 y (onun arvadı və qızı).

7.Həsən İsmayıl oğlu 45 y(arvadı və iki qızı); iki oğlu var: İsmayıl 15 y; Qoca 10 y.

8.Tanrıverdi Şıxı oğlu 50 y (onun arvadı və qızı); üç oğlu var: Rüstəm 10 y; Usub 9 y; Tağı 8 y.

9.Haxverdi Məmmədqasım oğlu 70 y;

***iki oğlu var:*** Namaz 30 y(onun arvadı); Səfər 15 y.

10.Mantam (?) Bayram oğlu 8 y (onun anası və bacısı).

Əhalisi qarapapaq türkləri olan Zeynal ağa kəndində 10 ailə, 27 kişi, 18 qadın, cəmi 45 adam yaşayır.

Kənddə 19 öküz, 20 inək, 14 buzov, 27 qoyun və keçi, 14 at var.





## №3.RƏHMAN KƏNDİ.

**Qarapapaq tayfası**

***Göyçə gölünün cənub sahilində Dərəçiçək mahalından sonra üçüncü kənddir.***

Torpağı dəmyədir, gölün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa şeylər əkirlər.

1.Praporşik Kazım ağa Nağı xan oğlu 22 y(onun arvadı və anası).

2.Kəndxuda Rəhman Hacı oğlu 60 y(onun arvadı);

***iki oğlu var:*** Hacı 30 y (onun arvadı); Əmrah 20 y.

3.Qalan ağa Balı oğlu 40 y (onun arvadı); oğlu Ramazan 8 y;

***qardaşı oğlu*** Vəli Vəli oğlu 20 y.

4.İmamqulu Əhməd oğlu 50 y(onun arvadı və qızı); oğlu Muradhasil 15 y.

5.Novruz Mustafa oğlu 45 y(onun anası); oğlu Oruc 20 y.

6.İbrahim Əli oğlu 35 y (onun arvadı və qızı); oğlu Əli 8 y.

7.Cəfər Mustafa oğlu 30 y(onun arvadı).

8.Usub Nəsib oğlu 40 y (onun arvadı); oğlu Abbas 15 y.

Rəhman kəndində türklərin qarapapaq tayfasına mənsub olan 8 ailə, 16 kişi, 12 qadın, cəmi 28 adam yaşayır.

Kənddə 2 camış, 17 öküz, 16 inək, 14 buzov, 13 at və 2 ulaq var.

## №4. AĞQALA KƏNDİ.

**Qarapapaq tayfası**

***Kənd Göyçə gölünün cənubunda Dərəçiçək mahalından sonra gələn dördüncü kənddir.***

Torpağı dəmyədir, çoxlu biçənəkləri var. Göyçə gölünün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa bitkilər əkirlər.

1.Kəndxuda Novruz Bayram oğlu 50 y (onun arvadı və qızı);

***üç oğlu var:*** Bayram 20 y(onun arvadı və qızı); Şaban 15 y; İsmayıl 10 y.

2.Vəli Bayram oğlu 30 y (onun arvadı və qızı).

3.Əli Bayram oğlu 40 y (onun arvadı və üç qızı); oğlu Ələkbər 3 y.

4.Ramazan Məhəmməd oğlu 60 y (onun iki arvadı və qızı); iki oğlu var: Oruc 15 y; Xıdır 9 y.

5.Əyyub Tanrıverdi oğlu 30 y (onun arvadı); oğlu Əli 1 y; qardaşı İsmayıl 15 y.

6.Babış Abdulla oğlu 40 y (onun arvadı və qızı); üç oğlu var: Abdulla 12 y; Əli 5 y; Nəbi 3 y.

7.Piri Qoca oğlu 60 y (onun arvadı və qızı); üç oğlu var: Vəli 20 y; Ocaqverdi 15 y; İmamverdi 3 y.

Əhalisi türklərin qarapapaq tayfasına mənsub olan Ağqala kəndində 7 ailə, 21 kişi, 18 qadın, cəmi 39 nəfər yaşayır.

Kənddə 12 öküz, 26 inək, 15 buzov, 103 qoyun və keçi, 8 at, 2 ulaq var.

**№5. ƏYRİVƏNK KƏNDİ.**

**Qarapapaq tayfası**

***Bu kənd Göyçə gölünün cənubunda Dərəçiçək mahalından sonra beşinci kənddir.***

Torpağı dəmyədir, çoxlu biçənəkləri var. Göyçə gölünün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa bitkilər əkirlər.

Burada gölün sahilində yerləşən və onun ləpələrinin yuduğu qədim kilsə və gölün sahili boyu kifayət qədər böyük bir şəhərin xarabalıqları yerləşir.

1.Kəndxuda Məmmədhüseyn Əmircan oğlu 35 y (onun arvadı, qızı və anası); iki oğlu var: Kazım 5 y; Cəmil 2 y;

***iki qardaşı var:*** Oğur (Uğur?) xan 30 y(onun arvadı); Novruz 25 y.





2.Əsəd Kamil oğlu 60 y (onun arvadı və qızı); iki oğlu var: İsmayıl 25 y; Əsgər 15 y.

3.Əli Daşdəmir oğlu 50 y (onun arvadı); oğlu Abdulla 9 y.

4.Muradəli Bayram oğlu 50 y (onun arvadı); iki oğlu var: Əhməd 8 y; Qara 5 y.

5.Qəhrəman Ağakişi oğlu 32 y (onun arvadı və qızı); dörd oğlu var: Ağakişi 10 y; Məhərrəm 8 y; Atakişi 4 y; Babakişi 1 y.

6.Kərim Babacan oğlu 35 y (onun arvadı); üç oğlu var: Əsgər 20 y; Bağır 15 y; Məhəmməd 6 y.

7.Məmmədqulu Abdulrza oğlu 35 y (onun arvadı və anası); iki qardaşı var: Zeynalabdin 15 y; Babacan 10 y.

8.Mustafa Qara oğlu 50 y (onun arvadı və qızı);

***iki oğlu var:*** İbrahim 25 y (onun arvadı; oğlu 1 y); İsmayıl 18 y.

9.İsmayıl Məhəmməd oğlu 40 y (onun arvadı, qızı və anası); üç oğlu var: Məhəmməd 8 y; Yolçu 6 y; Həsən 2 y.

10.Zeynal Əli oğlu 30 y (onun arvadı və qızı); oğlu Mehdi 10 y.

11.Həsən Ağacıq oğlu 40 y (onun arvadı və qızı); iki oğlu var: İsmayıl 15 y; Sail 6 y.

12.Bayram Ağacıq oğlu 45 y (onun arvadı); iki oğlu var: Kahya 12 y; Namaz 8 y.

Əhalisi türklərin qarapapaq tayfasına mənsub olan Əyrivənk kəndində 12 ailə, 41 kişi, 24 qadın, cəmi 65 adam yaşayır.

Kənddə 2 camış, 35 öküz, 38 inək, 34 buzov, 90 qoyun və keçi, 28 at var.

**№6. QIZILCIQ VƏ YA ABUL KƏNDİ.**

**Qarapapaq tayfası**

***Göyçə gölünün cənub sahilində Dərəçiçək mahalından sonra gələn altıncı kənd.***

Geniş əraziləri və biçənəkləri var. Göyçə gölünün suyundan istifadə edirlər.

Buğda, arpa, darı, kətan və başqa bitkilər əkirlər.

1.Kəndxuda Hüseyn Abul oğlu 40 y(onun arvadı); iki oğlu var: Həsən 10 y; Səfər 5 y; qardaşı Musa 25 y.

2.Məhəmməd Məmmədhüseyn oğlu 60 y (onun arvadı və qızı); iki oğlu var: Əmiraslan 12 y; Əli 8 y.

3.Qədiməli Elləz oğlu 62 y (arvadı və qızı);

***üç oğlu var:*** Məmmədhəsən 25 y (onun arvadı); Qələndər 15 y; Hüseyn 6 y.

4.Rüstəm Məhəmməd oğlu 25 y (anası və iki qızı); qardaşı Abdulla 20 y.

5.Əli Naim oğlu 35 y (arvadı və iki qızı); iki oğlu var: İsmayıl 10 y; Naim 8 y; qardaşı Bayram 20 y.

6. Hümbət İsmayıl oğlu 42 y (arvadı və üç qızı); oğlu Novruz 6 y.

7.Əliməmməd Əliyoldaş oğlu 50 y(arvadı və qızı); iki oğlu var: Abbasəli 20 y; Fətəli 15 y.

8.Hüseyn Əliyoldaş oğlu 45 y (onun arvadı);

***iki qardaşı var:*** Cəfər 25 y (onun arvadı); Məmi 20 y.

9.Tanrıverdi Mövlamverdi oğlu 45 y (arvadı və qızı); üç oğlu var: Sadıq 7 y; Mövlamverdi 4 y; İmamverdi 1 y;

***qardaşı*** Allahverdi 20 y(onun arvadı);

***üç əmisi oğlu var:*** Mustafa Vəli oğlu 12 y; Novruz 10 y; Əliqulu 8 y.

10.Həsən Əliyoldaş oğlu 32 y(onun arvadı); üç oğlu var: Abbas 8 y; Allahverdi 4 y; Tanrıverdi 2 y.

11.Həsən ismayıl oğlu 50 y (arvadı və iki qızı); üç oğlu var: Mustafa 15 y; Hüseyn 8 y; Zeynal 6 y.

12.Mürsəl Gülməmməd oğlu 15 y (anası və bacısı); iki qardaşı var: Qurban 8 y; Davud 6 y.





13.Kərbəlayi İsmayıl Kərbəlayi Məhəmməd oğlu 30 y (onun iki arvadı); oğlu Məhəmməd 1 y.

14.Abbasəli Hənifəqulu oğlu 50 y(arvadı və üç qızı); üç oğlu var: Zeynalabdi 15 y; İbrahim 8 y; Mustafa 6 y.

15.Əlihüseyn Əli oğlu 45 y (onun arvadı); üç oğlu var: Namaz 15 y; Məhərrəm 9 y; Hüseynəli 4 y.

16.İmamqulu Məhəmməd oğlu 35 y (onun arvadı); iki oğlu var: Qulu 5 y; Əli 3 y.

18.Əlinağı Əliyoldaş oğlu 45 y (onun arvadı); dörd oğlu var: Murad 16 y; Hüseyn 12 y; Bayram 8 y; Əliyoldaş 4 y.

**19.Həsən Əli oğlu 50 y (onun arvadı); dörd oğlu var: Əli 20 y; Məmmədhüseyn 15 y; Novruz 10 y; Qurban 7 y.**

Əhalisi türklərin qarapapaq tayfasına mənsub olan Qızılcıq kəndində 19 ailə, 68 kişi, 40 qadın, cəmi 108 adam yaşayır.

Kənddə 59 öküz, 61 inək, 60 buzov, 198 qoyun və keçi, 20 at və 5 ulaq var.

**№7.NƏRƏDÜZ KƏNDİ.** Türkiyədən köçürülən 105 erməni ailəsinin siyahısı.

**№8.QIŞLAQ KƏNDİ**. Türkiyədən köçürülən 30 erməni ailəsinin siyahısı.

**№9.HAVAR KƏNDİ**. Türkiyədən köçürülən 258 erməni ailəsinin siyahısı.

**№10.QUL ƏLİ KƏNDİ.** Türkiyədən köçürülən 140 erməni ailəsinin siyahısı.

**№11.KÖSƏ MƏHƏMMƏD VƏ YA GƏNDZƏK KƏNDİ.** Türkiyədən köçürülən 73 erməni ailəsinin siyahısı.

**№12.PAŞA KƏNDİ.** Türkiyədən köçürülən 81 erməni ailəsinin siyahısı.

**№13.DƏLİQARDAŞ KƏNDİ.** Türkiyədən köçürülən 116 erməni ailəsinin siyahısı.

**№14.GÖZAÇIQ KƏNDİ.** Türkiyədən köçürülən 42 erməni ailəsinin siyahısı.

**№15.BAŞKƏND.** Türkiyədən köçürülən 28 erməni ailəsinin siyahısı.

**№16.ƏYRANİS KƏNDİ.** 13 yerli, Türkiyədən köçürülən 44 erməni ailəsinin siyahısı.

**№17.HƏTƏMXAN KƏNDİ.** Türkiyədən köçürülən 28 erməni ailəsinin siyahısı.

**№18.VƏLİAĞALI KƏNDİ.** Türkiyədən köçürülən 56 erməni ailəsinin siyahısı.

**№19.TƏZƏKƏND.** Türkiyədən köçürülən 12 erməni ailəsinin siyahısı.

**№20.DƏLİKDAŞ KƏNDİ.** Türkiyədən köçürülən 20 erməni ailəsinin siyahısı.

**№21.GÖL KƏNDİ.** Türkiyədən köçürülən 49 erməni ailəsinin siyahısı.

**№22.AŞAĞI ADIYAMAN KƏNDİ.** Türkiyədən köçürülən 62 erməni ailəsinin siyahısı.





**№23.YUXARI ADIYAMAN KƏNDİ.** Türkiyədən köçürülən 16 erməni ailəsinin siyahısı.

**№24.ABDULAĞALI KƏNDİ.** Türkiyədən köçürülən 15 erməni ailəsinin siyahısı.

**№25.GÖZƏLDƏRƏ KƏNDİ.** Türkiyədən köçürülən 97 erməni ailəsinin siyahısı.

**№26.AĞQIRAQ KƏNDİ.** Türkiyədən köçürülən 30 erməni ailəsinin siyahısı.

**№27.YUXARI QARANLIQ KƏNDİ.** Türkiyədən köçürülən 54 erməni ailəsinin siyahısı.

**№28.AŞAĞI QARANLIQ KƏNDİ.** Türkiyədən köçürülən 60 erməni ailəsinin siyahısı.

**№29.ZOLAXAÇ KƏNDİ.** Türkiyədən köçürülən 46 erməni ailəsinin siyahısı.

**№30.KOLANI QIRILAN KƏNDİ.** Türkiyədən köçürülən 23 erməni ailəsinin siyahısı.

**№31.ALÇALI KƏNDİ**

**Qaraçorlu tayfası**

***Kənd Alçalı çayının yaxınlığında yerləşir.***

Xeyli suvarılan torpağı var. Alçalı çayından 3 arxla su çəkilib.

Dövlətə məxsus olan 5 yararsızsız dəyirman, sakinlərə məxsusu 13 camış, 39 öküz, 40 inək, 48 buzov, 419 qoyun və keçi, 26 at və 4 ulaq var.

1.Kəndxuda Molla Mustafa Həsən oğlu 60 y(onun iki arvadı və üç qızı); oğlu Məmiş 25 y;

***qardaşı oğlu*** Məhəmməd Hüseyn oğlu 20 y (onun arvadı və oğlu Həsən 1 y);

2.Allahyar Kərbəlayi Hüseyn oğlu 60 y (onun arvadı və iki qızı); iki oğlu var: Əli 8 y; Ələsgər 5 y;

***iki qardaşı var:*** İrzaqulu 30 y;(onun arvadı; iki oğlu var: Allahqulu 4 y; Almurad 2 y); Əsəd 20 y.

3.Molla Rəhim Kərbəlayi Məhərrəm oğlu 40 y (onun arvadı və iki qızı); iki oğlu var: Məhərrəm 14; Məhəmməd 1 y;

***iki qardaşı var:*** Kərim 35 y (onun arvadı və iki qızı); İsmayıl 20 y;

***əmisi*** Məşədi Həsən Məşədi o. 60 y(onun arvadı);

***onun oğlu*** Məmmədhəsən 30 y(onun arvadı və qızı).

4.Əmirxan Şahhüseyn oğlu 60 y (onun arvadı); oğlu Usub 12 y;

***qardaşı*** Həsən 40 y (onun arvadı və üç qızı); iki oğlu var: Nəsib 10 y; Hüseyn 1 y.

5.Rəşid Səfi oğlu 60 y (onun arvadı və qızı); oğlu Ələsgər 10 y.

6.Məmmədrza Usub oğlu 60 y (onun arvadı və qızı); iki oğlu var: Ağarza 30 y; Məhərrəm 15 y.

7.Usub Həsən oğlu 40 y (onun arvadı və qızı); oğlu Əli 5 y.

8.Şahəli Əlibəy o. 30 y.(onun arvadı, qızı və anası); oğlu Məhəmməd 3 y;

***iki qardaşı var:*** Qulu 25 y (arvadı və qızı); Abdulla 10 y.

9.Məmmədhəsən Şəfi oğlu 32 y (onun arvadı); iki oğlu var: Səfi 2 y; Hüseyn 1 y.

10.Həsən Qədim oğlu 20 y(onun anası).

11.Şükürəli Kərbəlayi Hüseyn oğlu 30 y(onun arvadı); iki oğlu var: Əli 6 y; Cəfərqulu 1 y.





12.Bayraməli Aydik(?) oğlu 40 y (onun arvadı, qızı və anası); qardaşı Şirəli 20 y.

13.Allahverdi Aşırəli oğlu 30 y (onun arvadı və qızı); oğlu Rəsul 2 y.

14.Vəli Tanrıverdi oğlu 30 y (onun arvadı və anası); oğlu Xudaverdi 1 y.

15.Əli Aşır oğlu 50 y; oğlu Aşır 20 y.

16.Şahbaz ağa Salman ağa oğlu 60 y (onun arvadı); iki oğlu var: Salman 20 y; Qurban 8 y.

Əhalisi qaraçorlu olan Alçalı kəndində 16 ailə, 54 kişi, 45 qadın, cəmi 99 adam yaşayır.

## №32. QARASAQQAL QIŞLAĞI KƏNDİ.

**Milli tayfası**

***Bu kənd Alçalı kəndinin torpağında və kanalın üstündədir.***

3 öküz, 7 inək, 6 buzov, 70 qoyun və keçi, 2 at var.

1.İsmayıl İbrahim oğlu 60 y (onun arvadı və qızı); iki oğlu var: İbrahim 15 y; Qədiməli 10 y.

2.Rza Arıza(?) oğlu 60 y (onun arvadı və iki qızı); oğlu Əlirza 4 y.

Əhalisi milli tayfasına mənsub olan Qarasaqqal qışlağı kəndində 2 ailə, 5 kişi, 5 qadın, cəmi 10 adam yaşayır.

## №33.YARPIZLI KƏNDİ

**Milli tayfası**

***Kənd Zağalı və Qızılqışlaq kəndləri arasında, xüsusi bulağın ətrafında yerləşir. Qızılqışlaq kəndindən çəkilmiş kanal da var.***

Kənddə biri işlək və dövlətə məxsus 3 yararsız dəyirman, 52 öküz, 79 inək, 100 buzov, 542 qoyun və keçi, 32 at var.

1.Kəndxuda Kərbəlayi Hüseynalı Şahəli oğlu 60 y (onun arvadı və iki qızı); iki oğlu var: Həsən 8 y; Hüseyn 1 y;

*qardaşı* Niftalı 40 y (onun iki arvadı, üç qızı); iki oğlu var: Şahəli 12 y; İsgəndər 1 y;

*qardaşı oğlu* Nağdəli Nağdəli oğlu 15 y.

2.Kərbəlayi Həsənalı Şahəli o. 50 y (onun arvadı və iki qızı); iki oğlu var: Məhəmməd 8 y; Əli 4 y.

3.Əlinəzər Şahnəzər o. 60 y (onun arvadı və qızı).

4.Əsil Allahverdi o. 30 y (onun arvadı və iki qızı);

*qardaşı* İsmayıl Şahban oğlu 20 y (onun arvadı).

5.Abbasəli Səfi o. 20 y(onun anası və bacısı).

6.Məhəmməd Mustafa o. 50 y (onun arvadı və üç qızı); beş oğlu var: Sail 18 y; Həsən 15 y;Hüseyn 10 y; Əli 8 y; Abbasəli 3 y.

7.İmamqulu Mustafa o. 45 y (onun arvadı və iki qızı); oğlu Vəli 5 y.

8.İsmayıl Qasım o. 50 y (onun arvadı və iki qızı);

*üç oğlu var:* Əli 20 y (onun arvadı və oğlu Qasım 1 y); Niftalı 12 y; Abdulturab 8 y.

9.Şahnəzər Ovçu o. 60 y (onun arvadı və qızı); iki oğlu var: Əli 15 y; Həsən 10 y.

10.Xəlif Ovçu o. 40 y (onun arvadı və qızı); iki oğlu var:Məhərrəm 7 y; Həsən 5 y.

11.Alı Ayvaz o. 50 y (onun arvadı və qızı); dörd oğlu var: Adıgözəl 15 y; İsmayıl 9 y; İrza 6 y; Ayvaz 2 y.

12.Əli Əlverdi o. 60 y (onun arvadı və qızı);

*beş oğlu var*: Ələkbər 30 y (onun arvadı və iki oğlu: Allahverdi 3 y; Xudaverdi 1 y); İsmayıl 20 y; Vəli 10 y; Allahqulu 7 y; Həsən 4 y.

13.Vəli Ayvaz o. 40 y. (onun arvadı və iki qızı).





14.Elləz İmamqulu o. 30 y (onun anası); oğlu İmamqulu 3 y.

15.Ələkbər Məhəmməd o. 45 y (onun arvadı və qızı); iki oğlu var: Mahmud 9 y; Yaqub 3 y.

16.Niftalı Mahmud o. 50 y (onun arvadı); oğlu Abbas 8 y.

17.Həsən Məhəmməd o. 35 y (arvadı və iki qızı); iki oğlu var: Salman 7 y; Cəfər 2 y.

18.Məhəmməd Usub o. 50 y (onun arvadı); üç oğlu var: Hüseyn 24 y; Süleyman 20 y; Əbdül 10 y.

19.Məhəmməd Canbaz o. 40 y (onun arvadı və beş qızı).

Əhalisi milli tayfasına mənsub olan Yarpızlı kəndində 19 ailə, 62 kişi, 59 qadın, cəmi 121 adam yaşayır.

**№34. ZAĞALI KƏNDİ.**

**Milli tayfası.**

***Bu kənd Qızılkilsə kəndinin yaxınlığında, baxımsız qalmış kəndlərdən aşağıda, gölün sahilində yerləşir.***

Suvarılan və biçənək olan xeyli torpaqları var. Qızılkilsə çayının suyundan istifadə edirlər. İçmək üçün gölün suyundan istifadə edilir.

Kənddə 55 öküz, 79 inək, 97 buzov, 1407 qoyun və keçi, 73 at, 3 ulaq var.

1.Kəndxuda Şahrza Yüzbaşı Mirzə o. 40 y(onun arvadı və iki qızı); iki oğlu var; Mirzə 4 y; Murtuza 1 y.

2.Kamal Əlirza o. 20 y.( onun arvadı və anası); oğlu Rza 1 y; qardaşı Bəbir 15 y.

3.Camal Kamal o. 50 y (onun arvadı və üç qızı); iki oğlu var: Şərif 15 y; Abbasəli 5 y.

4.Xanməmməd Kamal o. 60 y (arvadı və iki qızı); oğlu Kazım 3 y.

5.Şahməmməd Nəbi o. 30 y (onun arvadı, anası, qızı və bacısı); iki qardaşı var: İbrahim 25 y; Məcnun 15 y.

6.Hüseyn Həsən o. 60 y (onun arvadı);

***iki oğlu var:*** Abbas 15 y (onun arvadı); Həsən 7 y.

7.Hüseynəli Oruc o. 50 y (onun arvadı və üç qızı); iki oğlu var: İsmayıl 15 y; İbrahim 5 y.

8.Nəcəf Şahnəzər oğlu 30 y (onun arvadı və qızı); üç oğlu var: Xələf 10 y; Abbas 8 y; Tanrıverdi 5 y.

9.Şahnəzər Hüseynxan o. 70 y (onun arvadı);

***oğlu*** Məcnun 20 y (onun arvadı).

10.Həsən Hüseynxan oğlu 50 y (onun arvadı);

***iki oğlu var:*** Şahhüseyn 30 y (onun arvadı və iki qızı; oğlu Ağaməmməd 4 y); Məmməd 25 y.

11.Məmmədəli Həsən o. 30 y (onun arvadı); iki oğlu var: Həsən 8 y; Hüseyn 5 y.

12.Əli Həsən o. 40 y (onun arvadı); iki oğlu var: Bəbir 2 y; Vəli 1 y.

13.Bünyadəli Şahbaz o. 15 y (onun anası); qardaşı Hüseynalı 7 y.

14.Nəbi Hüseyn o. 60 y (onun üç qızı); üç oğlu var: Səfəralı 20 y; Allahverdi 13 y; Həsənalı 3 y.

15.Kərbəlayi Cəfər Abbas o. 50 y (onun arvadı); oğlu Abbasəli 7 y;

***qardaşı*** Məhərrəm 40 y (onun arvadı; oğlu Musa 3 y).

**Biruki tayfası**

1.Abdulla Mustafa oğlu 40 y (onun arvadı); oğlu İbrahim 5 y .

2.İsmayıl Kamil o. 60 y (onun arvadı);

***dörd oğlu var:*** Alı 30 y (onun arvadı; iki oğlu var: Süleyman 4 y; Osman 1 y);





Çələbi 30 y (onun arvadı və oğlu Mirzə 1); Abdulla 15 y; Şıxməmməd 12 y.

Əhalisi müsəlman olan Zağalı kəndində 17 ailə, 56 kişi, 42 qadın, cəmi 98 nəfər yaşayır.

**№35. QIZILBULAQ KƏNDİ.**

**Çaxırlı tayfası**

***Bu kənd Zağalı kəndindən yuxarıda, Zod vadisinin başlanğıcından şimal-şərqdə yerləir.***

Suvarılan geniş əraziləri var, Qızılbulağın iki bulağının suyundan istifadə edirlər.

1.Praporşik Mustafa ağa Məhəmməd ağa oğlu 40 y (onun arvadı və qızı); oğlu Səməd 1 y.

2.Kəndxuda Hüseyn ağa Əli ağa oğlu 50 y(onun arvadı və qızı); üç oğlu var: Həsən 20 y; Zeynal 18 y; Sadıq 14 y.

3.İbrahim Davud oğlu 40 y (onun arvadı); oğlu Əlmərdan 1 y;

*iki əmisi:* Aydın Davud oğlu 70 y(onun arvadı və oğlu Hüseyn 30 y);

Süleyman 60 y(onun arvadı və üç qızı); dörd oğlu var: Davud 20 y; Usub 15 y; İsmayıl 8 y; Nəsib 1 y.

4.Elləz Ayvaz oğlu 40 y(onun arvadı, iki qızı, anası); oğlu Süleyman 7 y;

***üç qardaşı var:*** Oruc 25 y (onun arvadı, oğlu Əhməd 1 y); Sadıq 22 y (onun arvadı); Qurbanəli 20 y.

5.Mehdi Ayvaz oğlu 45 y (onun arvadı); iki oğlu var: Həsən 4 y; Ələsgər 2 y; qardaşı Məhərrəm 20 y.

6.Əli Hacı oğlu 60 y; (onun arvadı və iki qızı); oğlu Hacı 15 y.

7.Novruz İman oğlu 30 y (onun arvadı); iki oğlu var: Məmmədhəsən 8 y; Rüstəm 1 y;

***üç qardaşı var:*** Məmmədəmin 40 y;Bayram 25 y; Uğur 20 y;

***əmisi*** Bəbir Qulu oğlu 70 y(onun arvadı).

8.Qasım Nəbi oğlu 50 y(onun arvadı); iki oğlu var: Rəsul 30 y (onun anası); Həsən 20 y.

9.İsmayıl Novruz oğlu 40 y(onun arvadı və qızı); oğlu Məhəmməd 3 y;

***üç qardaşı:*** Ağakişi 50 (onun arvadı və qızı, oğlu Mehdi 2 y);

Ramazan 25 y(onun arvadı və qızı); Əlinağı 20 y.

10.Abbasəli Rəsul oğlu 30 (onun arvadı, qızı, anası); qardaşı Qurbanəli 15 y.

11.Hüseyn Tağı oğlu 40 y (onun arvadı və anası); oğlu Məhəmməd 2 y; ***dörd qardaşı var:*** Məmmədşərif 15 y;Hacı 10 y; Budaq 5 y; Çıraq 3 y.

12.Vəli Əliqazax oğlu 50 y (onun arvadı); oğlu Süleyman 5 y.

13.Zeynal Vəli oğlu 40 y(onun arvadı, qızı, anası); dörd oğlu var: Vəli 10 y; Əli 8 y; Məmməd 6 y; İmamverdi 1 y.

14.Qaraca Tanrıverdi oğlu 30 y(onun anası); qardaşı Kərim 15 y.

15.Kərbəlayi Şahban Alı oğlu 60 y(onun arvadı və qızı); oğlu İrzaqulu 10 y.

16.Bədəl Xəlil oğlu 30 y (onun arvadı); oğlu Mehdi 3 y; qardaşı Ələsgər 20 y.

17.Sadıq Məmmədqulu oğlu 40 y(onun iki arvadı və iki qızı).

18.İbrahim Vəli oğlu 40 y(onun arvadı); oğlu İsmayıl 2 y.

19.Qulu Məmiş oğlu 20 y (onun arvadı və qızı); qardaşı Əli 15.





20.Bayram Allahverdi oğlu 25 y (onun arvadı, anası və bacısı); üç qardaşı var: Namaz 15 y; İmaməli 12 y; Abbas 5 y.

21.Zeynal Qurban oğlu 20 y(onun arvadı və anası); oğlu Qurban 2 y.

22.Həsən Pənah oğlu 40 y(onun arvadı); oğlu Əli 8 y;

***qardaşı*** Allahverdi 25 y(onun arvadı və oğlu Vəli 5 y).

23.Molla Salman Məhərrəm oğlu 40 y(onun arvadı və üç qızı);

***qardaşı*** Namaz 20 y (onun arvadı).

24.Muradhasil Rəhim oğlu 40 y(onun arvadı və üç qızı); oğlu Əli 7 y; qardaşı Məhəmməd 30 y.

25.Qasım Durmuş oğlu 25 y (onun arvadı); iki qardaşı var: Kəlbəli 15 y; Novruz 10 y.

26. Oruc Yolçu oğlu 50 y(onun arvadı və qızı); iki oğlu var: Yolçu 4 y; Cabbar 2 y.

27.Hüseyn Bəkir oğlu 30 y (onun arvadı); qardaşı İrza 10 y.

28.Ramazan Mirzə oğlu 30 y(onun arvadı və iki qızı); oğlu Zeynalabdin 4 y.

29.Allahverdi İsmayıl oğlu 30 y(onun arvadı və iki qızı); qardaşı Tanrıverdi 15 y.

30.Həsən Məhəmməd oğlu 40 y(onun arvadı və qızı); oğlu Məmmədbağır 3 y.

31.Həmzə Əli oğlu 30 y (onun arvadı və qızı).

32.Tağı Məhəmməd oğlu 40 y(onun arvadı və qızı); iki oğlu var: Nəzəralı 8 y; Əsgər 5 y.

33.Cəfər Tanrıverdi oğlu 80 y;

***üç oğlu var:*** Məhəmməd 30 y(onun arvadı, qızı və oğlu Elləz 6 y);

Oruc 23 y(onun arvadı, qızı və oğlu Əsgər 1 y); Ocaqqulu 20 y.

34.Mustafa Korçi oğlu 60 y(onun arvadı);

*qardaşı* Məhəmməd 30 y(onun arvadı, üç qızı və oğlu Əhməd 1 y).

35.İsmayıl Qoca oğlu 40 y(onun arvadı); iki oğlu var: Kazım 9 y; Oruc 1 y.

36.Haxverdi Oruc oğlu 25 y(onun arvadı və qızı); qardaşı Səfər 15 y.

Əhalisi çaxırlı tayfasına mənsub olan Qızılbulaq kəndində 36 ailə, 117 kişi, 95 qadın, cəmi 212 adam yaşayır.

Kənddəki 5 dəyirmandan ikisi işləyir. Dövlətə məxsus olan bu kənddə 2 baxımsız bəzirxana, 11 camış, 116 öküz, 142 inək, 167 buzov, 931 qoyun və keçi, 105 at və 9 ulaq var.

**№36. QIRXBULAQ KƏNDİ.**

**Milli tayfası**

***Bu kənd Zod vadisinin cənubunda, Qızılbulaq kəndinin yaxınlığında yerləşir.***

Torpağı suvarılandır, dəmyə yeri və biçənəkləri çoxdur. Qırxbulaq çayını əmələ gətirən bulaqların suyundan istifadə olunur. Bu çay Göyçə mahalının şərqində yerləşən balaca gölə tökülür.

1.Poruçik Pirmurad Sultan Möhsün bəy oğlu 45 y(onun üç arvadı, dörd qızı); beş oğlu var: Abbasəli bəy 20 y; Əlmərdan 15 y; Qəkko 10 y; Şirəli 7 y; Məmmədəli 8 y;

***iki nökəri var:*** Abdulla Allahverdi oğlu 20 y;

Ələsgər Ağaməmməd oğlu 40 y(onun arvadı və iki qızı); iki oğlu var: Ələkbər 8 y; Ağaməmməd 3 y.

2.Kəndxuda Qəmbəralı Süleyman oğlu 60 y(onun arvadı və iki qızı);

***iki oğlu var:*** Səfəralı 30 y(onun arvadı və üç oğlu var: Murадəli 6 y; Abbasəli 2 y; Məmmədalı 1 y); Süleyman 8 y;





***iki qardaşı oğlu:*** Bayram İman oğlu 30 y(onun arvadı, qızı, anası və iki oğlu var: İman 9 y; Bayraməli 7 y); Bünyadəli 15 y.

3.İmamverdi Məmmədqulu oğlu 50 y (onun arvadı və qızı);

***dörd oğlu var:*** Qafar 30 y (onun arvadı, qızı və iki oğlu: Behbudalı 6 y; Abbasəli 4 y);

Nəcəfalı 20 y(onun arvadı); Bünyadəli 15 y; Məmmədalı 10 y.

4.Qəhrəman Həsən oğlu 47 y(arvadı və iki qızı); üç oğlu var: Bayram 10 y; Nəcəfalı 7 y; Məmmədalı 4 y;

***qardaşı*** Musa 35 y(onun arvadı).

5.Əlirza Məhəmməd oğlu 70 y(onun arvadı);

***dörd oğlu var:*** Mirzə 40 y (onun arvadı); İrza 30 y; Əli 25 y; Usub 20 y.

6.Məmmədalı İrza oğlu 35 y(onun arvadı); iki oğlu var: İsgəndər 6 y; Həsən 3 y.

7.Məmmədvəli İmamqulu oğlu 70 y(onun arvadı);

***iki oğlu var:*** Şahverdi 30 y(onun arvadı və üç qızı); Nəbi 20 y.

8.Lütvəli Məmmədqulu oğlu 40 y(onun arvadı və qızı); üç oğlu var: Məmmədqulu 10 y; İsmayıl 6 y; Səfəralı 4 y.

9.Məmmədhəsən Həsənalı oğlu 25 y(onun arvadı, qızı və anası); qardaşı Məmmədxan 20 y.

10.Tanrıverdi Rəşid oğlu 50 y (onun arvadı);

***oğlu*** Məhəmməd 25 y(onun arvadı və oğlu Abbas 1 y).

11.Qurbanəli Məhəmməd oğlu 50 y(onun arvadı və qızı); dörd oğlu var: Behbudalı 15 y; Nəcəf 9 y; Novruz 9 y; Məmmədalı 4 y.

12.Əli Həsənalı oğlu 30 y(onun arvadı və anası);

***qardaşı*** Hüseynalı 25 y (onun arvadı və qızı);

13.Hüseyn Allahqulu oğlu 60 y(onun arvadı və iki qızı); beş oğlu var: Əbdülhəsən 20 y; Pirhəsən 15 y; Daşdəmir 12 y; Allahqulu 10 y; Əlihəsən 7 y.

14.İsmayıl Məho oğlu 40 y(onun arvadı və iki qızı); oğlu Məhəmməd 10 y.

15. Əlixan Məho oğlu 30 y(onun arvadı və iki qızı).

16.Alməmməd İbrahim oğlu 50 y (onun arvadı); oğlu Məmmədalı 20 y.

17.Şahverdi Allahverdi oğlu 30 y(onun arvadı və iki qızı).

18.Sadıq Sərdar oğlu 40 y (onun arvadı və qızı); iki oğlu var: Əhməd 3 y; Mehdi 1 y.

19.Hüseyn İsmayıl oğlu 50 y (onun arvadı və qızı); oğlu İsmayıl 30 y.

20.Qaraxan Qasım oğlu 40 y(onun arvadı və üç qızı); oğlu Pirverdi 1 y.

21.Əliməmməd Həsənalı oğlu 40 y (onun arvadı və anası); üç oğlu var: Məmmədcəfər 7 y; Qələndər 3 y; Qəmbər 1 y.

22.Əli Bayram oğlu 40 y(onun arvadı və üç qızı); iki oğlu var: Bayram 10 y; Məhəmməd 6 y.

23.Qurbanəli Bayram oğlu 20 y(onun arvadı).

24.Məhəmməd Məmmədrza oğlu 30 y (onun arvadı və qızı); qardaşı Novruz 20 y; iki əmisi oğlu: Fətəli Qurbanəli oğlu 20 y; İmamqulu 12 y.

25.Fətəli Qasım oğlu 40 y(onun arvadı və iki qızı); iki oğlu var: Kəlbəli 6 y; Şirəli 1 y.

26.Sübhanverdi Məmmədvəli oğlu 30 y (onun arvadı və qızı).

27. Mərdan Alı oğlu 20 y(onun anası və bacısı).

28.Abbas Elləz oğlu 60 y(onun arvadı və iki qızı); oğlu Allahverdi 3 y.

29.Almurad ağa Abbas ağa oğlu 56 y(onun arvadı və qızı); oğlanarı: Məhəmməd 10 y; Məhərrəm 4 y.

30.Ələsgər ağa Abbas ağa oğlu 50 y(onun arvadı və qızı); oğlanları: Ələkbər 20 y; Hüseyn 15 y; Şahverdi 12 y; Rəsul 5 y.





31.Həsən Xudaverdi oğlu 40 y (onun arvadı və iki qızı); oğlu Hüseyn 5 y; qardaşı Şahməmməd 20 y.

32.Şahhüseyn İsmayıl oğlu 70 y(onun arvadı);

***oğlanları:*** Məhərrəm 30 y(onun arvadı və qızı və oğlanları: İmamverdi 4 y; Xudaverdi 1 y); İsmayıl 25 y; Məmmədhüseyn 20 y.

33.Məhəmməd Şıxəli oğlu 40 y(onun arvadı); oğlu Fərzalı 8 y.

34.Tanrıverdi Haxverdi oğlu 35 y(onun arvadı).

35.Xanməmməd Novruz oğlu 25 y(onun arvadı və anası); qardaşları: Məhəmməd 15 y; Məhərrəm 4 y.

36.Məmmədalı Məhəmməd oğlu 40 y(onun arvadı); oğlanları: Həzrətqulu 6 y; İmamqulu 4 y.

37.Məmmədalı Qaybalı oğlu 10 y(onun anası və bacısı); qardaşları: Nağdəli 6 y; Hüseyn 3 y; Həsən 2 y.

38.Məmmədvəli Məhəmməd oğlu 55 y(onun arvadı); oğlu Məhəmməd 15 y;

***qardaşı*** Məmmədqulu 25 y(onun arvadı və iki qızı).

39.Şahbaz Ovçu oğlu 45 y(onun arvadı və qızı); oğlanları: Əhəd 12 y; Fətulla 8 y.

Kəndlilərə məxsus 1 işlək və dövlətə məxsus bir yararsız dəyirman, 11 camış, 114 öküz, 137 inək, 148 buzov, 1.253 qoyun və keçi, 91 at və 9 ulaq var.

Əhalisi müsəlmanların milli tayfasına mənsub olan Qırxbulaq kəndində 39 ailə, 133 kişi, 114 qadın, cəmi 247 adam yaşayır.

**№37. QANLI ALLAHVERDİ KƏNDİ.**

**Milli tayfası.**

***Kənd Kiçik gölün və Qızılkilsə çayının yaxınlığında yerləşir.***

Bulıaqlarla yanaşı, həmin çayın suyundan da istifadə olunur. Suvarılan torpaqları 80 xalvara yaxındır. Gölün sahillərində xeyli biçənəklər var.

1.Həsən Xələf oğlu 60 y(onun arvadı); iki oğlu var: Bayraməli 15 y; Rüstəm 6 y;

***qardaşı*** İsmayıl 50 y(onun arvadı və qızı);

